**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS 22300**

Birinci nəşr
2025

# Təhlükəsizlik və davamlıq – Lüğət

# Security and resilience – Vocabulary

İstinad nömrəsi
AZS ISO 22300:2025

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

©AZSTAND 2025

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Qaynar xətt: +994125149308
Email: office@azstand.gov.az

 ©AZSTAND –Bütün hüquqlar qorunur

# MÜQƏDDİMƏ

**1.** “Uyğunluğun qiymətləndirilməsi” standartlaşdırma üzrə Texniki Komitə (AZSTAND/TK-08) tərəfindən **işlənib hazırlanıb və təqdim edilib.**

**2.** “Azərbaycan Standartlaşdırma İnstitutunun” Publik Hüququ Şəxsin “_____” ________________2022-ci il tarixli __________________________ Qərarı ilə **təsdiq edilmişdir**.

**3.** Bu standart Beynəlxalq Standart ISO 22300 ilə eynidir (İDT).
This standart is identical (İDT) to the International Standard ISO 22300:2021.

**4.** İlk dəfə tətbiq edilir.

**5.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək məqsədilə ildə bir dəfədir.

©AZSTAND –Bütün hüquqlar qorunur

**MÜNDƏRİCAT**

Ön söz ..................................................................................................... V
Giriş ........................................................................................................ VI
1.Tətbiq sahəsi........................................................................................11
2. Normativ istinadlar ...............................................................................11
3.Terminlər və təriflər ...............................................................................11
3.1 Təhlükəsizlik və davamlılıqla bağlı terminlər.........................................11
3.2 Vergi möhürlərinin saxtalaşdırılması ilə bağlı terminlər...........................55
3.3 Təchizat zənciri ilə bağlı terminlər .......................................................60
3.4 CCT sistemi ilə bağlı terminlər.............................................................62
Ədəbiyyat................................................................................................63
Terminlərin siyahısı ..................................................................................64

 ©AZSTAND –Bütün hüquqlar qorunur

# ÖN SÖZ

Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) milli standartlaşdırma orqanlarının (ISO-nun üzv orqanları) ümumdünya federasiyasıdır. Beynəlxalq standartların hazırlanması işi adətən ISO-nun texniki komitələri vasitəsilə həyata keçirilir. Texniki komitənin yaradılma məqsədini təşkil edən predmetdə maraqlı olan hər bir üzv orqan həmin komitədə təmsil olunmaq hüququna malikdir. Bu işdə ISO ilə əlaqələndirmə şəraitində, beynəlxalq təşkilatlar, həmçinin hökumət və qeyri-hökumət təşkilatları da iştirak edir. ISO bütün elektrotexniki standartlaşdırma məsələlərində Beynəlxalq Elektrotexnika Komissiyası (IEC) ilə yaxından əməkdaşlıq edir.

Bu sənədi hazırlamaq üçün istifadə olunan və onun sonrakı saxlanması üçün nəzərdə tutulan prosedurlar ISO/IEC Direktivlərinin 1-ci hissəsində təsvir edilir. Müxtəlif növ ISO sənədləri üçün tələb olunan fərqli təsdiq meyarları xüsusilə qeyd edilməlidir. Bu sənəd ISO/IEC Direktivlərinin 2-ci hissəsinin redaksiya qaydalarına uyğun olaraq tərtib olunub (baxın: www.iso.org/directives).

Bu sənədin bəzi elementlərinin patent hüquqlarının predmeti ola biləcəyi ehtimalına diqqət yetirilir. ISO bu cür patent hüquqlarının hər hansı birinin və ya hamısının müəyyən edilməsinə görə məsuliyyət daşımır. Sənədin hazırlanması zamanı müəyyən edilmiş hər hansı patent hüquqlarının təfərrüatları "Giriş" bölməsində və/yaxud ISO-nun daxil olmuş patent bəyannamələrinin siyahısında təqdim olunacaq (baxın: patentswww.iso.org/).

Bu sənəddə istifadə edilən hər hansı ticarət adı istifadəçilərin rahatlığı üçün verilən informasiyadır və onun dəstəkləndiyini ehtiva etmir.

Standartların könüllü xarakter daşıması, uyğunluğun qiymətləndirilməsi ilə bağlı ISO-nun xüsusi termin və ifadələrinin mənasına dair izahat, eləcə də Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarətə Texniki Maneələr Sazişində əksini tapan prinsiplərə ISO-nun sadiqliyi haqqında məlumat üçün aşağıdakı keçidə daxil ola bilərsiniz: www.iso.org/ iso/foreword.html.

Bu sənəd *Təhlükəsizlik və davamlılıq* üzrə ISO/TC 292 saylı Texniki Komitə tərəfindən, ISO və CEN (Vyana Sazişi) arasında texniki əməkdaşlıq haqqında Razılaşmaya uyğun olaraq, Avropa Standartlaşdırma Komitəsinin (CEN) *Cəmiyyət və Vətəndaş Təhlükəsizliyi* üzrə CEN/TC 391 saylı Texniki Komitə ilə əməkdaşlıq şəraitində hazırlanmışdır.

Texniki baxımdan yenidən baxılmış hazırkı 3-cü nəşr ikinci nəşri (ISO 22300:2018) ləğv edir və əvəzləyir. Əvvəlki nəşrlə müqayisədə edilmiş əsas dəyişikliklər aşağıdakılardır:

— son dərc edilmiş sənədlərdən və ISO/TC 292-ə ötürülən sənədlərdən terminlər əlavə olunmuşdur;

— terminoloji qeydlər məzmun üzrə yarımbəndlərə ayrılmışdır.

Bu sənədlə bağlı hər hansı rəy və ya suallar istifadəçinin milli standartlaşdırma orqanına yönəldilməlidir Bu orqanların tam siyahısı www.iso.org/members.html səhifəsində təqdim olunur.

©AZSTAND –Bütün hüquqlar qorunur 

# GİRİŞ

Bu sənəd ISO/TC 292 tərəfindən hazırlanmış sənədlərlə bağlı ümumi terminlərin və sahəyə xas terminlərin təriflərini təqdim edir. O, həm ISO 22300 standartlar seriyasını, həm də ISO 28000 standartlar seriyasının bəzi sənədlərini əhatə edir.

Bu sənəd təhlükəsizlik və davamlılıq sahəsində proseslər və çərçivələrdə vahid termin və təriflərin qarşılıqlı və ardıcıl başa düşülməsini və istifadəsini təşviq etmək məqsədini daşıyır.

Bu sənəd müvafiq mətn, yazışma və kommunikasiyaları daha yaxşı və dəqiq başa düşmək məqsədilə səlahiyyətli qurumlar, eləcə də standartlaşdırma sistemlərində iştirak edən mütəxəssislər tərəfindən istinad mənbəyi kimi istifadə oluna bilər.

3.2, 3.3, 3.4-cü bəndlərdəki termin və təriflər müvafiq olaraq yalnız vergi möhürlərinin saxtalaşdırılması ilə bağlı standartlara, təchizat zənciri ilə bağlı standartlara və ya CCTV ilə bağlı standartlara aid edilir və ümumi mənada tətbiq olunmur.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**Təhlükəsizlik və davamlıq – Lüğət**

**AZS ISO 22300:2025**

**Security and resilience – Vocabulary**

Tətbiq edilmə tarixi_______________

## 1. Tətbiq sahəsi

Bu sənəd təhlükəsizlik və davamlılıqla bağlı standartlarda istifadə olunan terminləri müəyyənləşdirir.

## 2. Normativ istinadlar

Bu sənəddə hər hansı bir normativ sənədə istinad yoxdur.

## 3. Terminlər və təriflər

ISO və IEC standartlaşdırmada istifadə üçün terminoloji məlumat bazalarını aşağıdakı veb-ünvanlarda saxlayır:

— ISO-nun onlayn axtarış platforması: https://www.iso.org/obp
— IEC Elektropediyası: .electropedia.org/http://www

### 3.1 Təhlükəsizlik və davamlılıqla bağlı terminlər

**3.1.1**
**çıxış imkanı**
hüquq sahiblərinin (3.1.214) müəyyən bir xidmət və ya məhsuldan istifadə etmək və ya ondan faydalanmaq (3.1.17) qabiliyyəti

Tərifə dair qeyd 1: Məhdudiyyətlər mənbəyə olan məsafədən (məs., su təchizatı şəbəkəsi müəyyən bir məhəlləyə çatmır) və ya əlçatmazlıqdan (məs., xidmət müəyyən bir ev təsərrüfatı və ya insan qrupu üçün çox bahalıdır) və digər səbəblərdən qaynaqlana bilər.

**3.1.2**
**fəaliyyət**
müəyyən edilmiş nəticəsi olan bir və ya daha çox tapşırıqdan ibarət olan proses

**3.1.3**
**yapışdırıcı**
yapışqan
iki materialı birləşdirən kimyəvi qarışıq

Tərifə dair qeyd 1: Yapışma istilik, təzyiq və ya kimyəvi reaksiya vasitəsilə baş verə bilər.

**3.1.4**
**təsirə məruz qalan ərazi**
dəyişkənlik yaradan hadisənin (3.1.76) (insident, qəza, fəlakət) təsir etdiyi yer

Tərifə dair qeyd 1: Bu termin daha çox təxirəsalınmaz təxliyələrə (3.1.92) aid edilir.

**3.1.5**
**hadisədən sonrakı hesabat**
məşğələ haqda yekun hesabat

©AZSTAND –Bütün hüquqlar qorunur 

müşahidəçilərin (3.1.163) hesabatlarına və təhlillərinə əsaslanaraq, faktiki pozuntunu (3.1.75) və ya məşğələni (3.1.97) qeydə alan, təsvir edən və təhlil edən, həmçinin bu təcrübədən nəticə çıxaran sənəd 3.1.77)

Tərifə dair qeyd 1: Hadisədən sonrakı hesabat hadisədən sonra keçirilən baxışdan (3.1.211) əldə edilən nəticələri sənədləşdirir.

**3.1.6**
**xəbərdarlıq**
davam etməkdə olan fövqəladə vəziyyətdə (3.1.87) ilk müdaxilə edən şəxslərin və risk altında olan şəxslərin (3.1.176) diqqətini çəkən ictimai xəbərdarlığın (3.1.197) bir hissəsi

**3.1.7**
**təhlükə sovuşdu siqnalı**
təhlükənin keçib getdiyini bildirən mesaj və ya siqnal

**3.1.8**
**bütün növ təhlükələr**
təbii hadisə (3.1.96), insan tərəfindən törədilmiş hadisə (həm qəsdən, həm də bilməyərəkdən) və təşkilata (3.1.165), icmaya (3.1.39), yaxud cəmiyyətə və onun asılı olduğu mühitə potensial təsiri (3.1.118) olan texnoloji hadisə

**3.1.9**
**alternativ iş yeri**
əsas iş yeri əlçatan olmadıqda istifadə ediləcək, əsas yerdən fərqli iş yeri

**3.1.10**
**təhlil sahəsi**
həmkarlar tərəfindən baxış keçirilməsi üçün (3.1.174) seçilmiş mövzu

NÜMUNƏ Risklərin idarə edilməsinə (3.1.224) nəzarət, riskin qiymətləndirilməsi, maliyyə imkanları, şəhərsalma, iqlim dəyişikliyinə uyğunlaşma və ekosistemlərin qorunması, institusional imkanlar, icma (3.1.39) və cəmiyyətin potensialı, iqtisadi və biznesin davamlılığı (3.1.19), infrastruktur (3.1.128), ictimai səhiyyə, bərpa və yenidənqurma.

**3.1.11**
**təhlil sistemi**
təhlil sahəsini (3.1.10) formalaşdırmaq və həyata keçirmək üçün birlikdə fəaliyyət göstərən qarşılıqlı əlaqəli hissələr toplusu

**3.1.12**
**risk altında olan ərazi**
dəyişkənlik yaradan hadisənin (3.1.76) (insident, qəza, fəlakət) təsir edə biləcəyi yer

Tərifə dair qeyd 1: Bu termin daha çox qabaqlayıcı təxliyələrə (3.1.92) aid edilir.

**3.1.13**
**aktiv**
təşkilat (3.1.165) üçün dəyəri olan hər hansı bir şey

Tərifə dair qeyd 1: Aktivlərə insan, fiziki, məlumat (3.1.127), qeyri-maddi və ətraf mühit resursları (3.1.207) daxildir, lakin bunlarla məhdudlaşmır.

**3.1.14**
**audit**


©AZSTAND –Bütün hüquqlar qorunur

audit meyarlarının nə dərəcədə yerinə yetirildiyini müəyyənləşdirmək üçün audit sübutlarının əldə olunması və onların obyektiv şəkildə qiymətləndirilməsi ilə bağlı sistemli, müstəqil və sənədləşdirilmiş proses (3.1.190)

Tərifə dair qeyd 1: Audit daxili (3.1.134) (birinci tərəf) və ya kənar (ikinci və ya üçüncü tərəf), həmçinin kompleks (iki və ya daha çox sahəni əhatə edən) ola bilər.

Tərifə dair qeyd 2: Daxili audit təşkilatın (3.1.165) özü və ya onun adından kənar bir tərəf tərəfindən aparılır.

Tərifə dair qeyd 3: "Audit sübutları" və "audit meyarları" üçün təriflər ISO 19011 standartında müəyyən edilir.

Tərifə dair qeyd 4: Auditin əsas elementləri yoxlanılan obyektə cavabdeh olmayan şəxsi heyət (3.1.179) tərəfindən həyata keçirilən prosedura (3.1.189) uyğun olaraq obyektin (3.1.161) uyğunluğunun (3.1.44) müəyyən edilməsini ehtiva edir.

Tərifə dair qeyd 5: Daxili audit rəhbərlik (3.1.144) tərəfindən baxış (3.1.211) və digər daxili məqsədlər üçün həyata keçirilə bilər və təşkilatın uyğunluq bəyannaməsinin əsasını təşkil edə bilər. Müstəqillik audit edilən fəaliyyətə (3.1.2) görə məsuliyyətdən azad olma ilə nümayiş oluna bilər. Kənar auditlər ikinci və üçüncü tərəf auditlərini əhatə edir. İkinci tərəf auditləri təşkilata marağı olan tərəflər, məsələn, müştərilər və ya onların adından çıxış edən digər şəxslər tərəfindən aparılır. Üçüncü tərəf auditləri uyğunluğun sertifikatlaşdırılması/qeydiyyatı ilə məşğul olan və ya hökumət qurumları kimi müstəqil kənar audit təşkilatları tərəfindən aparılır.

Tərifə dair qeyd 6: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir. Əsas tərif tərifə dair 4-cü və 5-ci qeydlərin əlavə edilməsi ilə dəyişdirilmişdir.

**3.1.15**
**auditor**
*auditi* (3.1.14) həyata keçirən şəxs
[MƏNBƏ: ISO 19011:2018, 3.15]

**3.1.16**
**əsas sosial xidmətlər**
təhsil, səhiyyə və sosial sahələrdə göstərilən və əsas ehtiyacların ödənilməsi vasitələri kimi çıxış edən xidmətlər toplusu

**3.1.17**
**fayda**
həmkarlar tərəfindən baxış (3.1.174) nəticəsində tətbiq edilən dəyişikliklərdən əldə edilən ölçülə bilən təkmilləşmə

Tərifə dair qeyd 1: Faydalar maddi və ya qeyri-maddi, kəmiyyətlə ölçülə bilən və ya ölçülə bilməyən, maliyyə və ya qeyri-maliyyə xarakterli ola bilər.

**3.1.18**
**biomüxtəliflik**
bütün mənbələrdən, o cümlədən quru, dəniz və digər su ekosistemləri (3.1.84) və orqanizmlərin tərkib hissəsi olduğu ekoloji komplekslərdən olan canlı orqanizmlərin müxtəlifliyi

Tərifə dair qeyd 1: Bu, növlər daxilində, növlər arasında və ekosistemlər arasında müxtəlifliyi əhatə edir. Beləliklə, biomüxtəliflik təkcə bütün ekosistemlərin, növlərin və genetik materialların cəmi deyil, eyni zamanda onların daxilində və arasında olan dəyişkənliyi ifadə edir.

Tərifə dair qeyd 2: Biomüxtəliflik “bioloji müxtəliflik” kimi də ifadə oluna bilər.

©AZSTAND –Bütün hüquqlar qorunur 

**3.1.19**
**biznesin davamlığı**
təşkilatın (3.1.165) pozuntu (3.1.75) zamanı məhsul və xidmətlərin (3.1.192) əvvəlcədən müəyyən edilmiş imkan və qəbul edilən vaxt çərçivəsində çatdırılmasını davam etdirmə qabiliyyəti

**3.1.20**
**biznesin davamlığının idarə edilməsi**
biznesin davamlılığını (3.1.19) həyata keçirmək və qoruyub saxlamaq prosesi (3.1.190)

**3.1.21**
**biznesin davamlığını idarəetmə sistemi**
**BDİS**
biznesin davamlılığını (3.1.19) quran, həyata keçirən, idarə edən, izləyən, baxış keçirən (3.1.211), qoruyub saxlayan və təkmilləşdirən, ümumi idarəetmə sisteminin 3.1.146) tərkib hissəsi

Tərifə dair qeyd 1: İdarəetmə sisteminə təşkilati struktur, siyasətlər, fəaliyyətlərin planlaşdırılması, öhdəliklər, prosedurlar (3.1.189), proseslər (3.1.190) və resurslar (3.1.207) daxildir.

**3.1.22**
**biznesin davamlığı planı**
təşkilata (3.1.165) pozuntuya (3.1.75) reaksiya vermək, məhsul və xidmətlərin (3.1.192) təqdim edilməsini biznesin davamlılığı (3.1.19) məqsədlərinə (3.1.162) uyğun şəkildə bərpa etmək, yenidən qurmaq və davam etdirmək üçün yol göstərən sənədləşdirilmiş informasiya (3.1.78)

**3.1.23**
**biznesin davamlığı proqramı**
ali rəhbərlik (3.1.279) tərəfindən dəstəklənən və biznesin davamlılığının idarə edilməsini (3.1.20) tətbiq etmək və qorumaq üçün müvafiq şəkildə resurslarla təmin edilən davamlı idarəetmə 3.1.144) və idarəçilik prosesi (3.1.190)

Tərifə dair qeyd 1: ISO 22301:2019 standartında bu termin biznesin davamlılığını idarəetmə sistemi (3.1.21) ilə əvəz edilmişdir.

**3.1.24**
**biznesə təsirin təhlili**
təşkilata (3.1.165) təsir edən bir pozuntunun (3.1.75) zaman keçdikcə yaratdığı təsirin (3.1.118) təhlil edilməsi prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Nəticə biznesin davamlılığı (3.1.19) üzrə tələblərin (3.1.204) bəyanatı və əsaslandırılması şəklində ifadə olunur.

**3.1.25**
**potensial**
risk (3.1.215) səviyyəsini və ya böhranın (3.1.60) təsirlərini azalda bilən, təşkilat (3.1.165), icma (3.1.39) və ya cəmiyyət daxilində mövcud olan bütün güclü tərəflərin və resursların (3.1.207) birləşməsi

Tərifə dair qeyd 1: Potensial fiziki, institusional, sosial və ya iqtisadi vasitələri, habelə bacarıqlı şəxsi heyəti (3.1.179) və ya liderlik və idarəetmə (3.1.144) kimi xüsusiyyətləri əhatə edə bilər.


©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.26**
**qayğı göstərən şəxs**
həssas vəziyyətdə olan şəxsi (3.1.293) dəstəkləyən fərd
Tərifə dair qeyd 1: Qayğı göstərən şəxslər ödənişli və ya ödənişsiz qayğı təminatçıları ola bilər.

**3.1.27**
**yükdaşıma vahidi**
yük daşımaları üçün nəqliyyat vasitəsi, dəmir yolu vasitəsilə yükdaşıma vaqonu, yük konteyneri, çən ehtiva edən nəqliyyat vasitəsi, dəmir yolu vasitəsilə çənli vaqon və ya portativ çən

**3.1.28**
**CCTV (müşahidə kameraları) sistemi**
mağazada, şirkətdə və ya daha ümumi olaraq konkret bir infrastrukturda (3.1.128) və/yaxud ictimai yerdə fəaliyyətləri izləmək üçün istifadə edilən kameralar, qeyd cihazları, qarşılıqlı əlaqə və ekranlardan ibarət nəzarət sistemi

**3.1.29**
**çətinlik**
şəhər sisteminin (3.1.285) yeni yaranan riskləri və imkanları idarə etmək qabiliyyətinə və potensialına (3.1.25) təsir edə biləcək kontekstual və ya ekoloji dəyişiklik

**3.1.30**
**mülki müdafiə**
vətəndaşların həyatını və sağlamlığını, onların əmlakını və ətraf mühitini arzuolunmaz hadisələrdən (3.1.96) qorumaq üçün görülən tədbirlər və tətbiq edilən sistemlər
Tərifə dair qeyd 1: Arzuolunmaz hadisələrə qəzalar, fövqəladə vəziyyətlər (3.1.85) və fəlakətlər (3.1.73) daxil ola bilər.

**3.1.31**
**vətəndaş cəmiyyəti**
üzvlərinin və digər insanların maraqlarını ifadə edən və təşviq edən geniş spektrli fərdlər, insan qrupları, şəbəkələr, hərəkatlar, assosiasiyalar və təşkilatlar (3.1.165)
Tərifə dair qeyd 1: Vətəndaş cəmiyyəti xeyriyyəçilik, mədəni, dini, ekoloji və ya siyasi dəyərlərə və inanclara əsaslana bilər.
Tərifə dair qeyd 2: Bu tərif kommersiya şirkətlərini və müəssisələrini, akademik qurumları və hökumətə bağlı
bütün qurumları istisna edir.

**3.1.32**
**vətəndaş cəmiyyəti təşlilatı**
**VCT**
cəmiyyətin ümumi maraqlar ətrafında könüllü şəkildə təşkilatlandığı rəsmi assosiasiya
Tərifə dair qeyd 1: Bura siyasi, mədəni, ətraf mühit və dini əsaslı təşkilatlar, eləcə də qeyri-kommersiya və qeyri-hökumət təşkilatları daxildir.
Tərifə dair qeyd 2: VCT-lər müəyyən bir hüquqi statusa malik olan və cəmiyyətin müəyyən qruplarını təmsil edən, xidmətlərin göstərilməsində iştirak edən institusional təşkilatlardır.

**3.1.33**
**sifarişçi**
təhlükəsizlik əməliyyatlarını (3.1.249) öz adından yerinə yetirmək üçün bir təşkilatı (3.1.165) işə götürən, əvvəllər işə götürmüş və ya işə götürmək niyyətində olan qurum (3.1.91), o cümlədən, uyğun olduqda, belə bir təşkilat digər bir şirkət və ya yerli qüvvələrlə subpodrat (3.1.273) müqaviləsi bağlaya bilər.

NÜMUNƏ İstehlakçı, podratçı, son istifadəçi, pərakəndə satıcı, benefisiar, alıcı.

Tərifə dair qeyd 1: Sifarişçi təşkilat daxilində (məs., başqa bir şöbə) və ya təşkilatdan kənar ola bilər.

**3.1.33**
**sifarişçi**
təhlükəsizlik əməliyyatlarını (3.1.249) öz adından yerinə yetirmək üçün bir təşkilatı (3.1.165) işə götürən, əvvəllər işə götürmüş və ya işə götürmək niyyətində olan qurum (3.1.91), o cümlədən, uyğun olduqda, belə bir təşkilat digər bir şirkət və ya yerli qüvvələrlə subpodrat (3.1.273) müqaviləsi bağlaya bilər.

NÜMUNƏ İstehlakçı, podratçı, son istifadəçi, pərakəndə satıcı, benefisiar, alıcı.

Tərifə dair qeyd 1: Sifarişçi təşkilat daxilində (məs., başqa bir şöbə) və ya təşkilatdan kənar ola bilər.

**3.1.34**
**rəng korluğu**
bir insanın müəyyən rəng çalarlarını (3.1.113) tam və ya qismən fərqləndirmək qabiliyyətinin olmaması

**3.1.35**
**rəng kodu**
müəyyən mənaları simvolik şəkildə ifadə etmək üçün istifadə edilən rənglər toplusu

**3.1.36**
**idarəetmə və nəzarət**
məqsədyönlü qərar qəbul etmə fəaliyyətləri (3.1.2) , o cümlədən vəziyyətin qiymətləndirilməsi, planlaşdırma (3.1.180), qərarların icrası və icranın insidentə (3.1.122) təsirlərinə nəzarət

Tərifə dair qeyd 1: Bu proses (3.1.190) davamlı olaraq təkrarlanır.

**3.1.37**
**idarəetmə və nəzarət sistemi**
hazırlıq, insidentə cavab tədbiri (3.1.126), davamlılıq (3.1.50) və/yaxud bərpa (3.1.201) prosesi (3.1.190) çərçivəsində bütün mövcud aktivlər (3.1.13) üzrə fövqəladə vəziyyətlərin effektiv idarə edilməsini (3.1.88) dəstəkləyən sistem

**3.1.38**
**ünsiyyət və məsləhətləşmə**
bir təşkilatın (3.1.165) məlumat (3.1.127) vermək, bölüşmək və ya əldə etmək, eləcə də maraqlı tərəflər (3.1.132) və digər şəxslərlə riskin idarə edilməsi (3.1.144) mövzusunda dialoqa girmək üçün apardığı davamlı və təkrarlanan proseslər (3.1.190)

Tərifə dair qeyd 1: Məlumat risk və təhlükəsizlik əməliyyatlarının idarə edilməsi (3.1.250) ilə bağlı mövcudluq, mahiyyət, forma, ehtimal (3.1.142), ciddilik səviyyəsi, qiymətləndirmə (3.1.95), məqbulluq, aradan qaldırma və digər aspektlərə aid ola bilər.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 2: Məsləhətləşmə bir təşkilatla onun maraqlı tərəfləri və ya digər şəxslər arasında bir məsələ ilə bağlı qərar qəbul edilməzdən və ya istiqamət müəyyən edilməzdən əvvəl aparılan iki tərəfli məlumatlı ünsiyyət prosesidir. Məsləhətləşmə aşağıdakıları ifadə edir:

— qərara gücün deyil, təsir yolu vasitəsilə təsir edən bir proses;

— ortaq qərar qəbulu prosesi deyil, qərar qəbulu prosesinə bir töhfədir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.2.1, dəyişdirilib — “maraqlı tərəflər və digər şəxslər” ifadəsi maraqlı tərəflər (“stakeholders”) sözünü əvəz etmiş və Tərifə dair qeyd 1 dəyişdirilmişdir.]

**3.1.39**
**icma**

ortaq maraqları paylaşan bir-biri ilə əlaqəli təşkilatlar (3.1.165), fərdlər və qruplar toplusu

Tərifə dair qeyd 1: Təsirə məruz qalan icmalar təhlükəsizlik (3.1.239) xidmətlərinin, layihələrin və ya əməliyyatların həyata keçirilməsindən təsirlənən insan qrupları və əlaqəli təşkilatlardır.

**3.1.40**
**icma əsaslı erkən xəbərdarlıq sistemi**

icma əsaslı xəbərdarlıq sistemi

məlumatın (3.1.127) mövcud şəbəkələr vasitəsilə ictimaiyyətə çatdırılması metodu

Tərifə dair qeyd 1: Xəbərdarlıq sistemi risk haqqında bilikləri, monitorinqi (3.1.155) və xəbərdarlıq xidmətini, məlumatın yayılması və çatdırılmasını, eləcə də risklərin (3.1.215) qarşısını almaq, azaltmaq və fəlakətə (3.1.73) cavab tədbirləri hazırlamaq üçün cavabvermə imkanlarını özündə birləşdirə bilər.

**3.1.41**
**icmanın həssaslığı**

fərdlərin, qrupların və ya infrastrukturların (3.1.128) bir təhlükənin (3.1.110) dağıdıcı təsirləri baxımından risk (3.1.215) altında olmasına səbəb olan xüsusiyyətləri və şəraiti

**3.1.42**
**səriştə**

nəzərdə tutulan nəticələri əldə etmək üçün bilik və bacarıqlardan istifadə etmək qabiliyyəti

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.43**
**mürəkkəblik**

çoxsaylı müxtəlif və müstəqil, lakin bir-biri ilə qarşılıqlı əlaqədə və bir-birindən asılı olan komponentlərdən və ya hissələrdən ibarət olan və bu hissələrin bir-biri ilə və kənar elementlərlə çoxsaylı və qeyri-xətti yollarla qarşılıqlı əlaqədə olduğu təşkilati sistemin vəziyyəti

Tərifə dair qeyd 1: Mürəkkəblik davranışın yalnız ayrı-ayrı dəyişənlərin davranışlarının cəmi kimi müəyyən edilə bilmədiyi bir sistem xüsusiyyətidir.

**3.1.44**
**uyğunluq**

hər hansı bir tələbin (3.1.204) yerinə yetirilməsi

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.45**
**nəticə**

<yekun nəticə>bir hadisənin (3.1.96) məqsədlərə (3.1.162) təsirindən yaranan nəticə

Tərifə dair qeyd 1: Nəticə müəyyən və ya qeyri-müəyyən ola və məqsədlər üzərində müsbət və ya mənfi, birbaşa və ya dolayı təsirə malik ola bilər.

Tərifə dair qeyd 2: Nəticələr keyfiyyətcə və ya kəmiyyətcə ifadə oluna bilər.

Tərifə dair qeyd 3: Hər hansı bir nəticə pilləvari və kumulyativ təsirlər vasitəsilə daha da genişlənə bilər.

[MƏNBƏ: ISO 31000:2018, 3.6]

**3.1.46**
**nəticə**

<itki>təchizat zəncirindəki bir təşkilata (3.3.9) qarşı hücumun (3.2.4) və ya təchizat zəncirindən (3.1.271) silah kimi istifadə etməyin nəticəsində ağlabatan şəkildə gözlənilə biləcək həyat itkisi, əmlaka ziyan, yaxud iqtisadi pozuntu, o cümlədən nəqliyyat sistemlərində pozuntu (3.1.75)

**3.1.47**
**kontekst**

imkanların qiymətləndirilməsi zamanı nəzərə alınmalı olan xarici və daxili amillər

Tərifə dair qeyd 1: Xarici kontekst aşağıdakıları əhatə edir:

— beynəlxalq, milli, regional və ya yerli səviyyədə olmasından asılı olmayaraq, mədəni, sosial, siyasi, hüquqi, tənzimləyici, maliyyə, texnoloji, iqtisadi, təbii və rəqabətli mühit;
— təşkilatın (3.1.165) məqsədlərinə (3.1.162) təsir (3.1.118) edən əsas hərəkətverici amillər və meyllər;
— xarici maraqlı tərəflərlə (3.1.132) münasibətlər, onların təsəvvürləri və dəyərləri.

Tərifə dair qeyd 2: Daxili kontekstə aşağıdakılar daxildir:

— təşkilatın səlahiyyəti;
— biznes həssaslığı;
— idarəçilik, təşkilati struktur, vəzifələr və hesabatlılıq;
— resurslar və biliklər [məs., kapital, vaxt, insan, proseslər (3.1.190), sistemlər və texnologiyalar];
— *təşkilati mədəniyyət* (3.1.166).

**3.1.48**
**fövqəladə hal**

gələcəkdə baş verə biləcək hadisə (3.1.96), şərait və ya mümkün vəziyyət

**3.1.49**
**davamlı təkmilləşmə**

effektivliyin (3.1.177) yaxşılaşdırılması üçün təkrarlanan fəaliyyət (3.1.2)

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.50**
**davamlılıq**

əməliyyatları əvvəlcədən müəyyən edilmiş məqbul səviyyədə davam etdirmək üçün şəraitlərə, vəziyyətlərə və hadisələrə (3.1.96) hazırlıq görmək və onlara cavab vermək üçün təşkilatın (3.1.165) rəhbərliyi (3.1.144) tərəfindən əvvəlcədən təsdiq edilmiş strateji və taktiki qabiliyyət


©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 1: Davamlılıq təşkilatın adi iş şəraitindən kənarda fəaliyyətini davam etdirmək qabiliyyətini təmin etmək üçün əməliyyat və biznes davamlılığını (3.1.19) ifadə edən daha ümumi bir termindir. Bu, yalnız kommersiya şirkətlərinə deyil, qeyri-hökumət, ictimai maraq və dövlət təşkilatları kimi bütün növ qurumlara şamil edilir.

**3.1.51**
**nəzarət tədbiri**
riski (3.1.215) saxlayan və/və ya dəyişdirən tədbir

Tərifə dair qeyd 1: Nəzarət tədbirlərinə riski saxlayan və/və ya dəyişdirən hər hansı proses (3.1.190), siyasət (3.1.181), vasitə, təcrübə və ya digər şərtlər və/və ya fəaliyyətlər daxildir, lakin bunlarla məhdudlaşmır.

Tərifə dair qeyd 2: Nəzarət tədbirləri hər zaman nəzərdə tutulan və ya ehtimal edilən dəyişdirici təsirləri göstərməyə bilər.

[MƏNBƏ: ISO 31000:2018, 3.8]

**3.1.52**
**əməkdaşlıq**
razılaşma əsasında ortaq maraqlar və dəyərlər üçün birgə işləmə və ya hərəkət etmə prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Təşkilatlar (3.1.165) müqavilə və ya digər razılaşmalar vasitəsilə insidentə cavabvermə (3.1.126) üçün öz resursları (3.1.207) ilə töhfə verməyə razılaşırlar, lakin daxili iyerarxik strukturlarına dair müstəqilliklərini qoruyurlar.

**3.1.53**
**əlaqələndirmə**
müxtəlif təşkilatların (3.1.165) (dövlət və ya özəl) və ya eyni təşkilatın müxtəlif bölmələrinin ortaq məqsədə (3.1.162) nail olmaq üçün birgə işləmə və ya fəaliyyət göstərmə üsulu

Tərifə dair qeyd 1: Əlaqələndirmə insidentə cavabvermə (3.1.126) tədbirlərinin vahid məqsədə malik olduğu dərəcədə sinerjiyə nail olmaq üçün iştirak edən tərəflərin (o cümlədən, məsələn, dövlət və ya özəl təşkilatlar, hökumət) fərdi cavabvermə tədbirlərini (3.1.2) inteqrasiya edir və müvafiq insidentə cavabvermə tədbirləri barədə şəffaf məlumatların (3.1.127) paylaşılması ilə fəaliyyətləri əlaqələndirir.

Tərifə dair qeyd 2: Bütün təşkilatlar ümumi insidentə cavabvermə məqsədi üzərində razılaşmaq və bu qərarvermə konsensusu çərçivəsində strategiyaları həyata keçirməyi qəbul etmək üçün prosesə (3.1.190) cəlb olunurlar.

**3.1.54**
**təshihetmə**
aşkar edilmiş uyğunsuzluğun (3.1.159) aradan qaldırılması üçün görülən tədbir

[MƏNBƏ: ISO 9000:2015, 3.12.3, dəyişdirilib — Tərifə dair 1 və 2-ci qeydlər çıxarılmışdır.]

**3.1.55**
**təshihedici tədbir**
uyğunsuzluğun (3.1.159) səbəb(lər)ini aradan qaldırmaq və onun təkrar baş verməsinin qarşısını almaq üçün həyata keçirilən tədbir

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.56**
**saxtalaşdırmaq,fel**

©AZSTAND –Bütün hüquqlar qorunur 

maddi malı (3.1.149) və ya onun qablaşdırmasını icazəsiz şəkildə simulyasiya etmək, təkrar istehsal etmək və ya dəyişdirmək

**3.1.57**
**saxta mal**
orijinal maddi malı (3.2.7) təqlid edən və ya onun surətini çıxaran maddi mal (3.1.149)

**3.1.58**
**mübarizə tədbiri**
təhlükəsizliyə yönələn təhdid ssenarisinin (3.1.258) öz məqsədlərinə (3.1.162) nail olma ehtimalını (3.1.142) azaltmaq və ya təhlükəsizliyə yönələn təhdid ssenarisinin mümkün nəticələrini (3.1.46) minimuma endirmək üçün görülən tədbir

**3.1.59**
**əhatə dairəsi**
öhdəlik daşıyan şəxsin (3.1.80) xidmət və ya məhsul təmin etmək imkanı (3.1.25)

Tərifə dair qeyd 1: Buna maliyyə imkanları, coğrafi mövqe və normativ-institusional çərçivələr təsir göstərə bilər.

**3.1.60**
**böhran**
həyatın, aktivlərin (3.1.13), əmlakın və ya ətraf mühitin qorunması üçün dərhal diqqət göstərilməsini və tədbirlərin görülməsini tələb edən, qarşıda duran ani və ya əhəmiyyətli dəyişikliklə müşayiət olunan qeyri-sabit vəziyyət

**3.1.61**
**böhran vəziyyətinin idarə edilməsi**
təşkilatı (3.1.165) təhdid edən potensial təsirləri (3.1.118) müəyyən edən və davamlılığın (3.1.206) formalaşdırılması üçün çərçivə təmin edən vahid idarəetmə (3.1.144) prosesi (3.1.190). Bu, təşkilatın əsas maraqlı tərəflərinin (3.1.132) maraqlarını, nüfuzunu, brendini və dəyər yaradan fəaliyyətlərini (3.1.2) qorumaqla yanaşı, əməliyyat imkanlarının səmərəli bərpasını təmin edən effektiv cavabvermə qabiliyyətini də əhatə edir.

Tərifə dair qeyd 1: Böhran vəziyyətinin idarə edilməsi insident (3.1.122) baş verdikdə hazırlığın (3.1.182), riskin azaldılmasının (3.1.154), cavab tədbirlərinin və davamlılığın (3.1.50) və ya bərpanın (3.1.201) idarə olunmasını da əhatə edir. Bundan əlavə, hazırlıq, cavab tədbirləri və davamlılıq planlarının aktual və müasir qalmasını təmin etmək üçün təlimlər (3.1.280), məşq və icmallar (3.1.211) vasitəsilə ümumilikdə proqramın idarə olunmasını da özündə birləşdirir.

**3.1.62**
**böhran vəziyyətinin idarə edilməsi üzrə qrup**
cavab tədbirlərinin və əməliyyat davamlılığı (3.1.50) planının hazırlanmasına və icrasına rəhbərlik etməyə, əməliyyat pozuntusunu (3.1.75) və ya fövqəladə vəziyyəti (3.1.87)/böhran (3.1.60) vəziyyətini elan etməyə və həm pozucu hadisədən (3.1.122) əvvəl, həm də sonra bərpa (3.1.201) prosesi (3.1.190) zamanı istiqamət verməyə funksional olaraq cavabdeh olan fərdlər qrupu

Tərifə dair qeyd 1: Böhran vəziyyətinin idarə edilməsi üzrə qrup təşkilatın (3.1.165) üzvləri ilə yanaşı, dərhal və ilk müdaxilə edənlər və maraqlı tərəfləri (3.1.132) də ehtiva edə bilər.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.63**
**kritik nəzarət nöqtəsi**
**KNN**
nəzarət mexanizmlərinin (3.1.51) tətbiq oluna biləcəyi və təhdidin (3.1.277) və ya təhlükənin (3.1.110) qarşısının alına, aradan qaldırıla və ya məqbul səviyyəyə endirilə biləcəyi məqam, mərhələ və ya proses (3.1.190)

**3.1.64**
**kritik sifarişçi**
biznesinin itirilməsi təşkilatın (3.1.165) mövcudluğunu təhlükə altına qoya biləcək qurum (3.1.91)

**3.1.65**
**kritik obyekt**
icmanın (3.1.39) və ya cəmiyyətin sosial və iqtisadi fəaliyyətini təmin etmək üçün vacib xidmətlər göstərən fiziki struktur, şəbəkə və ya digər aktiv (3.1.13)

**3.1.66**
**kritik göstərici**
insidentin (3.1.122), qəzanın və ya fövqəladə vəziyyətin (3.1.87) yaranma potensialını müəyyən etmək üçün monitorinq edilən təhlükəni (3.1.110) qiymətləndirmək üçün istifadə edilən kəmiyyət, keyfiyyət və ya təsviri ölçü.

Tərifə dair qeyd 1: Kritik göstəricilər bir obyektin (3.1.105) struktur vəziyyətinin ən vacib ayrılmaz xüsusiyyətləri haqqında məlumat (3.1.127) verir.

**3.1.67**
**kritik məhsul və xidmət**
bir təchizatçıdan əldə edilən və əlçatmaz olduğu halda bir təşkilatın (3.1.165) kritik fəaliyyətlərini (3.1.2) pozacaq və onun mövcudluğunu təhlükəyə atacaq resurs (3.1.207)

Tərifə dair qeyd 1: Kritik məhsullar və ya xidmətlər təşkilatın biznesə təsirin təhlilində (3.1.24) müəyyən edilən yüksək prioritetli fəaliyyətlərini və proseslərini (3.1.190) dəstəkləmək üçün mühüm resurslardır.

**3.1.68**
**kritik təchizatçı**
kritik məhsul və ya xidmətlərin (3.1.50) təminatçısı

Tərifə dair qeyd 1: Buna sifarişçisi ilə eyni təşkilatın (3.1.165) bir hissəsi olan "daxili təchizatçı" daxildir.

**3.1.69**
**kritiklik təhlili**
təşkilatın (3.1.165) aktivlərini (3.1.13) onun missiyasının və ya funksiyasının əhəmiyyəti, risk altında olan şəxslər qrupu (3.1.176) və ya arzuolunmaz hadisənin (3.1.281) və ya pozuntunun (3.1.75) təşkilatın gözləntiləri qarşılama qabiliyyəti baxımından əhəmiyyəti əsasında sistemli şəkildə müəyyən etmək və qiymətləndirmək üçün nəzərdə tutulmuş proses (3.1.190)

**3.1.70**
**kritik şəkildə**
məqsədlər (3.1.162) və/yaxud nəticələr baxımından həyati əhəmiyyətə malik olmaq

**3.1.71**
**məlumatların təhlili**
real və ya planlaşdırılmış sistemdə prosesin (3.1.190) və axının monitorinqindən (3.1.155) əldə edilmiş müvafiq, sübuta əsaslanan məlumatların (3.1.127) sistemli tədqiqi

**3.1.72**
**mərkəzləşdirilməmiş təhlili**
dövlətin inzibati orqanlarından fərqli olaraq, qanun çərçivəsində öz səlahiyyətlərinə, resurslarına (3.1.207) və öhdəliklərini yerinə yetirmək qabiliyyətinə malik olan, müəyyən dərəcədə özünüidarəetmə hüququna sahib, qanuni legitimliyi səlahiyyətlərin necə icra olunacağını müəyyən edən və yerli hakimiyyət orqanlarını yurisdiksiyaları daxilində vətəndaşlar qarşısında hesabatlı edən təmsilli, seçilən yerli demokratik strukturlar vasitəsilə təmin edilən yerli hakimiyyət orqanları

**3.1.73**
**fəlakət**
genişmiqyaslı insan, maddi, iqtisadi və ya ətraf mühit itkilərinin baş verdiyi və təsirə məruz qalmış təşkilatın (3.1.165), icmanın (3.1.39) və ya cəmiyyətin öz resurslarından (3.1.207) istifadə etməklə cavab vermək və bərpa olunmaq imkanlarını aşan vəziyyət

**3.1.74**
**fəlakət risklərinin azaldılması**
yeni fəlakət risklərinin qarşısını almaq, mövcud riskləri azaltmaq və qalıq riskləri (3.1.205) idarə etmək məqsədi daşıyan siyasət (3.1.181). Bu yanaşmalar davamlılığı (3.1.206) gücləndirməyə və beləliklə, dayanıqlı inkişafa nail olunmasına töhfə verir.

**3.1.75**
**pozuntu**
təşkilatın (3.1.165) məqsədlərinə (3.1.162) uyğun olaraq məhsul və xidmətlərin (3.1.192) gözlənilən çatdırılmasında planlaşdırılmamış, mənfi bir kənaraçıxmaya səbəb olan, gözlənilən və ya gözlənilməyən bir insident (3.1.122)

**3.1.76**
**dəyişkənlik yaradan hadisə**
gözlənilən və ya gözlənilməyən şəkildə planlaşdırılmış fəaliyyətləri (3.1.2), əməliyyatları və ya funksiyaları dayandıran hadisə və ya dəyişiklik

**3.1.77**
**sənəd**
məlumatlar (3.1.127) və onların saxlanıldığı daşıyıcı
Tərifə dair qeyd 1: Daşıyıcı kağız, maqnit, elektron və ya optik kompüter diski, fotoşəkil və ya əsas nümunə, yaxud bunların kombinasiyası ola bilər.
Tərifə dair qeyd 2: Spesifikasiyalar və qeydlər (3.1.200) kimi sənədlər toplusu həmişə "sənədləşdirmə" adlanır.
[MƏNBƏ: ISO 9000:2015, 3.8.5, dəyişdirilib — Nümunə və Tərifə dair qeyd 3 çıxarılmışdır.]

**3.1.78**
**sənədləşdirilmiş informasiya**
təşkilat (3.1.165) tərəfindən nəzarət edilməsi və yenilənmiş vəziyyətdə saxlanılması tələb olunan məlumatlar (3.1.127) və onların saxlanıldığı daşıyıcı


©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 1: Sənədləşdirilmiş informasiya istənilən formatda və daşıyıcıda və istənilən mənbədən ola bilər. Tərifə dair qeyd 2: Sənədləşdirilmiş informasiya dedikdə aşağıdakılar nəzərdə tutula bilər:

— idarəetmə sistemi (3.1.146), o cümlədən əlaqədar proseslər (3.1.190);
— təşkilatın fəaliyyət göstərməsi üçün yaradılmış informasiya (sənədləşmə);
— əldə edilən nəticələrin sübutları (qeydiyyat sənədləri (3.1.200)).

Tərifə dair qeyd 3: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.79**
**məşq**
müəyyən bir bacarığı məşq etdirən və çox vaxt eyni hərəkətin bir neçə dəfə təkrarlanmasını əhatə edən fəaliyyət (3.1.2)

NÜMUNƏ Yanğın zamanı binadan təhlükəsiz təxliyəni təcrübə etmək üçün yanğın məşqi.

**3.1.80**
**öhdəlik daşıyan şəxs**
insan hüquqlarına (3.1.115) hörmət etmək, onları təşviq etmək və həyata keçirmək, eləcə də insan hüquqlarının pozulmasından çəkinmək üçün xüsusi öhdəliyi və ya məsuliyyəti olan fərd

Tərifə dair qeyd 1: Bu termin ən çox dövlət nümayəndələrinə aid edilir, lakin qeyri-dövlət nümayəndələri də öhdəlik daşıyan şəxslər hesab edilə bilər.

Tərifə dair qeyd 2: Kontekstdən (3.1.47) asılı olaraq, fərdlər (məs., valideynlər), yerli təşkilatlar (3.1.165), özəl şirkətlər, yardım göstərən donorlar və beynəlxalq qurumlar da öhdəlik daşıyan şəxslər hesab edilə bilər.

**3.1.81**
**qayğı öhdəliyi**
digərlərinin təhlükəsizliyini, rifahını və ya maraqlarını təmin etmək üçün mənəvi və ya hüquqi öhdəlik

**3.1.82**
**erkən xəbərdarlıq**
zərərçəkmiş fərdlərə risklərin (3.1.215) qarşısını almaq, yaxud onları azaltmaq üçün tədbir görmək və müvafiq cavab tədbirləri görməyə hazırlaşmaq imkanı verməklə, yerli şəbəkələr vasitəsilə məlumatın (3.1.127) təqdim edilməsi

**3.1.83**
**iqtisadi müxtəliflik**
müəyyən bir coğrafi ərazidə iqtisadi fəaliyyətin (3.1.2) sənaye sahələri, sektorlar, bacarıq səviyyələri və məşğulluq səviyyələri kimi bir sıra müxtəlif kateqoriyalar arasında bölüşdürülmə dərəcəsi

**3.1.84**
**ekosistem**
təbiətin fəal vahidi kimi qarşılıqlı əlaqədə olan bitki, heyvan və mikroorqanizm aləmi və onların cansız mühitinin (məs., torpaq, hava, günəş işığı) dinamik kompleksi

Tərifə dair qeyd 1: Ekosistemdə yaşayan hər şey həmin ekoloji icmanın bir hissəsi olan digər növlər və elementlərdən asılıdır.

©AZSTAND –Bütün hüquqlar qorunur

[MƏNBƏ: ISO 14055-1:2017, 3.1.1, dəyişdirilib — “(məs., torpaq, hava, günəş işığı) təbiətin fəal vahidi kimi qarşılıqlı əlaqədə olan” ifadəsi “fəal vahid kimi qarşılıqlı əlaqədə olan” ifadəsini əvəz etmiş və Tərifə dair qeyd 1 əlavə edilmişdir.]

**3.1.85**
**ekosistem xidmətləri**
insanların ekosistemlərdən (3.1.84) əldə etdiyi fayda (3.1.17)

Tərifə dair qeyd 1: Bunlara aşağıdakılar daxildir: təminat xidmətləri, məsələn, qida, su, taxta materialı və liflər; iqlimə, daşqınlara, xəstəliklərə, tullantıların yaranmasına və suyun keyfiyyətinə təsir göstərən tənzimləyici xidmətlər; rekreasiya, estetik və mənəvi faydalar təmin edən mədəni xidmətlər və dəstəkləyici xidmətlər, məsələn, torpaq əmələgəlməsi, fotosintez və qidalanma dövriyyəsi.

[MƏNBƏ: ISO 14055-1:2017, 3.1.2, dəyişdirilib — Tərifə dair qeyd 1 gözdən keçirilib və genişləndirilib.]

**3.1.86**
**effektivlik**
planlaşdırılmış fəaliyyətlərin (3.1.2) həyata keçirilməsi və planlaşdırılan nəticələrin əldə olunması dərəcəsi

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.87**
**fövqəladə vəziyyət**
dərhal tədbir görülməsini tələb edən ani, təcili və adətən gözlənilməz baş verən hadisə (3.1.96)

Tərifə dair qeyd 1: Fövqəladə vəziyyət adətən bir pozuntu (3.1.75) və ya vəziyyət olub, çox vaxt əvvəlcədən proqnozlaşdırıla və ya ona hazırlıq görülə bilər, lakin dəqiq şəkildə əvvəlcədən müəyyən edilməsi nadir hallarda mümkündür.

**3.1.88**
**fövqəladə vəziyyətin idarə olunması**
fövqəladə vəziyyətlərin (3.1.63) qarşısını almaq və baş verənləri idarə etmək üçün ümumi yanaşma

Tərifə dair qeyd 1: Ümumilikdə, fövqəladə vəziyyətlərin idarə edilməsi potensial destabilizasiya yaradan hadisələr (3.1.96) və/yaxud pozuntulardan (3.1.75) əvvəl, bu hadisə və/yaxud pozuntular zamanı və sonra profilaktika (3.1.183), hazırlıq (3.1.182), cavab tədbirləri və bərpa (3.1.201) üçün risklərin idarə olunması (3.1.224) yanaşmasını tətbiq edir.

**3.1.89**
**fövqəladə vəziyyətin idarə olunması**
potensial destabilizasiya yaradan və ya dəyişiklik yaradan hadisələrdən (3.1.76) əvvəl, bu hadisələr zamanı və sonra profilaktika (3.1.183), hazırlıq (3.1.182), cavab tədbirləri və bərpa (3.1.201) proseslərini effektiv şəkildə idarəetmə qabiliyyəti

**3.1.90**
**işçilərə dəstək proqramı**
təşkilatlara (3.1.165) məhsuldarlıq problemlərini həll etməyə kömək etmək və işçilərə iş fəaliyyətinin səmərəliliyinə (3.1.177) təsir göstərə biləcək şəxsi məsələləri, o cümlədən sağlamlıq, ailə, evlilik, maliyyə, spirtli içki, narkotik, hüquqi, emosional, stres və ya digər fərdi problemləri müəyyən edib həll etmələrinə kömək etmək məqsədilə göstərilən müqaviləli dəstək xidməti


©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 1: Beynəlxalq İşçilərə Dəstək üzrə Peşəkarlar Assosiasiyasının (EAPA) tərifindən uyğunlaşdırılmışdır.

**3.1.91**
**subyekt**
ayrıca və fərqli mövcudluğu olan və kontekst (3.1.47) daxilində tanına bilən hər hansı bir varlıq
Tərifə dair qeyd 1: Subyekt insan, təşkilat (3.1.165), fiziki obyekt (3.1.161), obyektlər sinfi və ya qeyri-maddi obyekt ola bilər.

**3.1.92**
**təxliyə**
insanların təhlükəli və ya potensial təhlükəli ərazilərdən təhlükəsiz yerlərə nizamlı, mərhələli və nəzarət altında köçürülməsi

**3.1.93**
**təxliyə əmri**
insanların təxliyəsini təmin etmək üçün verilən əmrlər toplusu

**3.1.94**
**təxliyə məşqi**
təxliyə (3.1.92) ilə bağlı müəyyən bir bacarığı məşq etdirən və çox vaxt eyni hərəkətin bir neçə dəfə təkrarlanmasını əhatə edən fəaliyyət (3.1.2)
NÜMUNƏ Torpaq sürüşməsi (3.1.141) zamanı bir məhəllənin və ya kəndin təhlükəsiz şəkildə təxliyəsini təcrübədən keçirmək üçün məşq (3.1.79).

**3.1.95**
**qiymətləndirmə**
ölçmənin nəticəsini (3.1.152) tanınmış meyarlarla müqayisə edərək nəzərdə tutulan və faktiki fəaliyyət səmərəliliyi (3.1.177) arasındakı fərqləri müəyyənləşdirmək üçün aparılan sistemli proses (3.1.190)
Tərifə dair qeyd 1: Fəaliyyətdəki boşluqlar davamlı təkmilləşdirmə (3.1.49) prosesinə daxil edilən resurslardır.

**3.1.96**
**hadisə**
müəyyən vəziyyətlər məcmusunun baş verməsi və ya dəyişməsi
Tərifə dair qeyd 1: Hadisə bir və ya bir neçə dəfə baş verə bilər və onun bir neçə səbəbi və bir neçə nəticələri (3.1.45) ola bilər.
Tərifə dair qeyd 2: Hadisə, həmçinin gözlənilən, lakin baş verməyən və ya gözlənilməyən, lakin baş verən bir şey ola bilər.
Tərifə dair qeyd 3: Bir hadisə bir risk mənbəyi (3.1.230) ola bilər.
[MƏNBƏ: ISO 31000:2018, 3.5]

**3.1.97**
**məşğələ**
təşkilatda (3.1.165) fəaliyyət səmərəliliyi (3.1.177) üçün təlim, qiymətləndirmə, məşq və təkmilləşdirmə prosesi (3.1.190)
Tərifə dair qeyd 1: Məşğələlər siyasətləri (3.1.182), planları, prosedurları (3.1.189), təlimləri (3.1.280), avadanlıqları və təşkilatlararası razılaşmaları yoxlamaq, şəxsi heyətin (3.1.179) vəzifə və öhdəliklərini aydınlaşdırmaq və onlara bu barədə təlim keçmək, təşkilatlararası əlaqələndirməni (3.1.53) və kommunikasiyaları təkmilləşdirmək, resurs

(3.1.207) çatışmazlıqlarını müəyyən etmək, fərdi performansı artırmaq və təkmilləşmə imkanlarını müəyyən etmək və gözlənilməz vəziyyətin öhdəsindən gəlməyi (3.1.121) məşq etmək üçün nəzarət olunan bir imkan yaradır. Məşğələ uğur və ya uğursuzluq gözləntisi olmadan həyata keçirilə bilər.

Tərifə dair qeyd 2: Həmçinin baxın: sınaq (3.1.275).

**3.1.98**
**İllik məşğələ planı**

məşğələ (3.1.97) siyasəti (3.1.181) planının məşğələ məqsədlərinə və məşğələlərə çevrildiyi, həmçinin müəyyən bir il üçün nəzərdə tutulmuş məşğələ proqramını (3.1.100) əks etdirən sənəd (3.1.77)

**3.1.99**
**məşğələ koordinatoru**

məşğələ (3.1.97) fəaliyyətlərinin (3.1.2) planlaşdırılması (3.1.180), keçirilməsi və qiymətləndirilməsinə cavabdeh olan şəxs

Tərifə dair qeyd 1: Böyük miqyaslı məşğələlərdə bu funksiyanı bir neçə nəfər/işçi heyəti yerinə yetirə bilər və bu, "məşğələyə nəzarət" adlandırıla bilər.

Tərifə dair qeyd 2: Bəzi ölkələrdə "məşğələ koordinatoru" əvəzinə "məşğələ direktoru" və ya oxşar terminlərdən istifadə olunur.

Tərifə dair qeyd 3: Məşğələ koordinatoru vəzifəsi, həmçinin daxili və xarici qurumlar (3.1.66) arasında əməkdaşlığın (3.1.52) təmin edilməsinə də cavabdehdir.

**3.1.100**
**məşğələ proqramı**

ümumi bir məqsədə (3.1.162) və ya hədəfə nail olmaq üçün nəzərdə tutulmuş bir sıra məşğələ (3.1.97) fəaliyyətləri (3.1.2)

**3.1.101**
**məşğələ proqramı üzrə menecer**

məşğələ proqramının (3.1.100) planlaşdırılması (3.1.180) və təkmilləşdirilməsinə cavabdeh olan şəxs

**3.1.102**
**məşğələ üzrə layıhə qrupu**

məşğələ (3.1.97) layihəsinin planlaşdırılması (3.1.180), keçirilməsi və qiymətləndirilməsinə cavabdeh olan fərdlər qrupu

**3.1.103**
**məşğələnin təhlükəsizliyi üzrə məsul şəxs**

məşğələ (3.1.97) zamanı hər hansı hərəkətlərin təhlükəsiz şəkildə icra olunmasını təmin etməklə vəzifələndirilmiş şəxs

Tərifə dair qeyd 1: Böyük miqyaslı və müxtəlif funksiyaları əhatə edən məşğələlərdə bir neçə təhlükəsizlik üzrə məsul şəxs təyin edilə bilər.

**3.1.104**
**kənar hücum**

qanuni istehsalçı, malın yaradıcısı və ya hüquq sahibi (3.1.214) ilə birbaşa və ya dolayısı ilə bağlı olmayan şəxslər və ya qurumlar tərəfindən həyata keçirilən hücum (3.2.4)

**3.1.105**
**obyekt**

 ©AZSTAND –Bütün hüquqlar qorunur

qurğu, maşın avadanlıqları, əmlak, bina, dəniz/quru/hava limanı nəqliyyat vasitələri və digər infrastruktur (3.1.128) obyektləri, yaxud fərqli və ölçülə bilən iş funksiyasına malik olan avadanlıq və əlaqəli sistemlər

Tərifə dair qeyd 1: Obyektin məsələn, qanunvericiliklə müəyyən olunan rəsmi sərhədləri ola bilər.

**3.1.106**
**məhkəmə ekspertizası**
məhkəmələrdə istifadə olunan və ya onlarla əlaqəli olan hallar

Tərifə dair qeyd 1: Bu, hüquqi sübutların əldə edilməsi üçün istifadə olunan video-müşahidə sistemlərinə (3.1.289) tətbiq edilir.

**3.1.107**
**tammiqyaslı məşğələ**
bir neçə təşkilatı (3.1.165) və ya funksiyanı əhatə edən və faktiki fəaliyyətləri (3.1.2) daxil edən məşğələ (3.1.97)

**3.1.108**
**funksional məşğələ**
vahid funksiyaların fəaliyyəti üçün arzuolunmaz hadisəyə (3.1.96) cavab vermək və bərpa olunmaq üçün nəzərdə tutulmuş  təlim, qiymətləndirmə, məşq və təkmilləşdirmə məşğələsi (3.1.97)

**3.1.109**
**coğrafı yerləşmə**
enlik, uzunluq, dəniz səviyyəsindən hündürlük və koordinat sistemini ifadə etmək üçün müxtəlif üsullardan biri ilə müəyyən edilən konkret yer

Tərifə dair qeyd 1: Coğrafi yerləşmə ümumiyyətlə yer kürəsində müəyyən bir nöqtənin və ya obyektin (3.1.161) mövqeyinin mənalı şəkildə ifadə edilməsini bildirir. Bu termin müəyyən bir koordinat sisteminin tətbiqini məcbur etmir. Coğrafi yerləşmə ilə əlaqəli əlavə xüsusiyyətlər (3.2.5) coğrafi yerləşmə spesifikasiyasının bir hissəsi hesab edilmir.

**3.1.110**
**təhlükə**
potensial zərərin mənbəyi (3.1.266)

Tərifə dair qeyd 1: Təhlükə bir risk mənbəyi (3.1.230) ola bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.5.1.4]

**3.1.111**
**təhlükənin monitorinqi funksiyası**
ictimai xəbərdarlıq (3.1.197) zərurətinə dair qərarların verilməsi üçün istifadə olunan müəyyən bir ərazidə təhlükələr (3.1.110) haqqında sübuta əsaslanan məlumat (3.1.127) əldə etmək üçün aparılan fəaliyyətlər (3.1.2)

**3.1.112**
**ev sahibi**
həmkarlar tərəfindən baxış (3.1.174) prosesinin bir hissəsi olaraq baxış keçirən tərəfdən (3.1.213) rəy alan qurum (3.1.91)

Tərifə dair qeyd 1: Bu qurum təşkilat (3.1.165), tərəfdaşlıq (3.1.173), icma (3.1.39), şəhər, region, ölkə və ya başqa bir qurum ola bilər.

**3.1.113**

©AZSTAND –Bütün hüquqlar qorunur 

**rəng çaları**
vizual hissiyyatın bir xüsusiyyəti (3.2.5) olub, bir sahənin qəbul edilən rənglərdən birinə, qırmızı, sarı, yaşıl və mavi rəngə və ya onların ikisinin qarışığına oxşar göründüyü xüsusiyyət

**3.1.114**
**insan tərəfindən dəyərləndirmə**
müfəttiş (3.2.24) tərəfindən qiymətləndirildiyi forması ilə həqiqilik

**3.1.115**
**insan hüquqları**
milli mənsubiyyəti, yaşayış yeri, cinsi, milli və ya etnik mənşəyi, dərisinin rəngi, dini, dili və ya hər hansı digər statusundan asılı olmayaraq bütün insanların malik olduğu təbii hüquqlar

Tərifə dair qeyd 1: Bütün insanlar ayrı-seçkilik edilmədən bərabər şəkildə insan hüquqlarına malikdir.

Tərifə dair qeyd 2: İnsan hüquqları qarşılıqlı əlaqəli, universal və ayrılmaz, bir-biri ilə bağlı və bölünməz, bərabər və ayrı-seçkiliyə yol verməyən, həm hüquq, həm də öhdəlikdir.

**3.1.116**
**insan hüquqları ilə bağlı risklərin təhlili**
**İHRT**
insan hüquqları ilə bağlı risklərin qiymətləndirilməsi
insan hüquqlarına təsirin qiymətləndirilməsi
insan hüquqları ilə bağlı risklərin və onların təsirinin qiymətləndirilməsi
risklərin idarə olunması və insan hüquqlarına (3.1.115) mənfi təsirlərin və hüquqi pozuntuların qarşısının alınması və ya azaldılması məqsədilə insan hüquqları ilə bağlı riskləri (3.1.215) və onların təsirlərini (3.1.118) müəyyən etmək, təhlil etmək, qiymətləndirmək və sənədləşdirmək (3.1.77) üçün həyata keçirilən proses (3.1.190)

Tərifə dair qeyd 1: İHRT insan hüquqlarına təsirləri müəyyən etmək, qarşısını almaq, azaltmaq və idarə olunması barədə hesabat vermək üçün təşkilatın (3.1.165) insan hüquqları üzrə lazımi araşdırma aparmaq öhdəliyinin (3.1.204) bir hissəsidir.

Tərifə dair qeyd 2: İHRT beynəlxalq insan hüquqları prinsipləri və konvensiyaları çərçivəsində həyata keçirilir və təşkilatın ümumi risk qiymətləndirməsinin (3.1.219) fundamental hissəsini təşkil edir.

Tərifə dair qeyd 3: İHRT təşkilatın təhlükəsizlik əməliyyatları (3.1.249) vasitəsilə səbəb ola biləcəyi və ya töhfə verə biləcəyi, yaxud biznes əlaqələri vasitəsilə təşkilatın əməliyyatları, layihələri və ya xidmətləri ilə birbaşa əlaqələndirilə bilən, insan hüquqlarına faktiki və potensial təsirlərin ciddiliyinin təhlil edilməsini ehtiva edir. İHRT prosesi əməliyyat kontekstini nəzərə almalı, insan hüquqları sahəsində zəruri təcrübədən yararlanmalı və hüquqları risk altında ola biləcək maraqlı tərəflərlə (3.1.132) birbaşa və faydalı şəkildə əlaqəni ehtiva etməlidir.

Tərifə dair qeyd 4: İnsan hüquqlarına mənfi təsirlərin nəticələrinin (3.1.45) təhlili onların ciddilik dərəcəsinə görə ölçülür və prioritetləşdirilir.

Tərifə dair qeyd 5: İnsan hüquqları ilə bağlı risklərin zaman keçdikcə dəyişə biləcəyini nəzərə alaraq, İHRT mütəmadi aralıqlarla həyata keçirilməlidir.

Tərifə dair qeyd 6: İHRT-lərin mürəkkəbliyi (3.1.43) təşkilatın ölçüsünə, insan hüquqlarına ciddi təsir riskinə, eləcə də onun əməliyyatlarının xarakterinə və kontekstinə (3.1.47) görə dəyişir.

**3.1.117**
**identifikasiya**
bir subyekti (3.1.91) müəyyən edən xüsusiyyətləri (3.2.5) tanıma prosesi (3.1.190)

**3.1.118**


©AZSTAND –Bütün hüquqlar qorunur

**təsir**
bir pozuntunun (3.1.75) məqsədlərə (3.1.162) təsirindən yaranan nəticə

**3.1.119**
**təsirin təhlili**
nəticənin təhlili
bütün əməliyyat funksiyalarını və əməliyyatın pozulmasının onlara göstərə biləcəyi təsiri təhlil etmək üçün aparılan proses (3.1.190)

Tərifə dair qeyd 1: Təsirin təhlili risklərin qiymətləndirilməsi (3.1.219) prosesinin bir hissəsidir və biznesə təsirin təhlilini (3.1.24) də ehtiva edir. Təsirin təhlili itkinin və ya ziyanın necə özünü göstərəcəyini, insidentdən (3.1.122) sonra zaman keçdikcə zərərin və ya itkinin potensial artma dərəcəsini, biznes proseslərinin minimum məqbul səviyyədə fəaliyyətini davam etdirməsi üçün lazım olan minimum xidmətləri və resursları (3.1.207) (insan, fiziki və maliyyə), təşkilatın (3.1.165) fəaliyyətləri (3.1.2), funksiyaları və xidmətlərinin hansı müddət ərzində və hansı səviyyədə bərpa edilməli olduğunu müəyyənləşdirir.

**3.1.120**
**qərəzsizlik**
obyektivliyin faktiki və ya qavranılan mövcudluğu

Tərifə dair qeyd 1: Obyektivlik dedikdə sonrakı fəaliyyətlərə (3.1.2) mənfi təsir göstərməmək məqsədilə maraqlar toqquşmasının mövcud olmaması və ya həll edilməsi nəzərdə tutulur.

Tərifə dair qeyd 2: Qərəzsizlik elementinin ifadə edilməsində ən çox istifadə olunan digər terminlər aşağıdakılardır: obyektivlik, müstəqillik, maraqların toqquşmaması, qərəzin olmaması, qərəzli yanaşmanın olmaması, neytrallıq, ədalətlilik, açıq fikirlilik, tərəfsizlik, qərəzsizlik (detachment) və tarazlıq.

**3.1.121**
**gözlənilməz vəziyyətin öhdəsindən gəlmə**
az və ya heç bir hazırlıq olmadan gözlənilməz bir vəziyyətə reaksiya yaratmaq, formalaşdırmaq və ya icra etmək hərəkəti

**3.1.122**
**insident**
pozuntuya (3.1.75), itkiyə, fövqəladə vəziyyətə (3.1.87) və ya böhrana (3.1.60) səbəb ola bilən və ya ona gətirib çıxara biləcək hadisə (3.1.96)

**3.1.123**
**insident üzrə əmr**
insidentin idarə edilməsi sistemi (3.1.124) çərçivəsində həyata keçirilən və insidentin (3.1.122) idarə olunması (3.1.144) prosesində inkişaf edən proses (3.1.190)

**3.1.124**
**insidentin idarə edilməsi sistemi**
insidentlərin (3.1.122) idarə edilməsi (3.1.144) üçün şəxsi heyətin (3.1.179) vəzifə və öhdəliklərini,
eləcə də əməliyyat prosedurlarını (3.1.189) müəyyən edən sistem

**3.1.125**
**insidentə hazırlıq**
insidentə cavabverməyə (3.1.126) hazırlıq məqsədilə həyata keçirilən fəaliyyətlər (3.1.2)

©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.126**
**insidentə cavabvermə**
yaxınlaşan təhlükənin (3.1.110) səbəblərini aradan qaldırmaq və/yaxud potensial destabilizasiya yaradan hadisələrin (3.1.96) və ya pozuntuların (3.1.75) nəticələrini (3.1.46) yüngülləşdirmək, həmçinin normal vəziyyətə qayıtmaq üçün həyata keçirilən tədbirlər

Tərifə dair qeyd 1: İnsidentə cavabvermə fövqəladə vəziyyətin idarə olunması (3.1.88) prosesinin (3.1.190) bir hissəsidir.

**3.1.127**
**məlumat**
mənalı nəticə əldə etmək üçün işlənilmiş, təşkil olunmuş və əlaqələndirilmiş verilənlər

**3.1.128**
**infrastruktur**
təşkilatın (3.1.165) fəaliyyəti üçün lazım olan obyektlər (3.1.104), avadanlıqlar və xidmətlər

[MƏNBƏ: ISO 9000:2015, 3.5.2]

**3.1.129**
**təbii təhlükəli əmlak**
səlahiyyəti olmayan şəxsin əlinə keçdiyi təqdirdə ölümə və ya ciddi bədən xəsarətinə səbəb ola biləcək qaçılmaz təhlükəyə (3.1.277) gətirib çıxara biləcək əmlak

NÜMUNƏ Ölümcül silahlar, sursat, partlayıcı maddələr, kimyəvi agentlər, bioloji agentlər və toksinlər, nüvə və ya radioloji materiallar.

**3.1.130**
**ssenari əlavəsi**
bir cavab və ya qərar əldə etmək və məşğələnin gedişatını asanlaşdırmaq üçün nəzərdə tutulmuş, məşğələ (3.1.97) üçün ssenariyə daxil edilən məlumat (3.1.127)

Tərifə dair qeyd 1: Ssenari əlavələri yazılı, şifahi, televiziya vasitəsilə və/və ya müxtəlif yollarla (məs., telefon, e-poçt, faks, səsli mesaj, radio və ya işarə dili) ötürülə bilər.

**3.1.131**
**bütövlük**
aktivlərin (3.1.13) dəqiqliyinin və tamlığının qorunması xüsusiyyəti

**3.1.132**
**maraqlı tərəf (interested party)**
maraqlı tərəf (stakeholder)
hər hansı bir qərara və ya fəaliyyətə (3.1.2) təsir edə bilən, onların təsirinə məruz qala bilən və ya onların təsirinə məruz qaldığını güman edən şəxs və ya təşkilat (3.1.165)

NÜMUNƏ Sifarişçilər, məsul şəxslər (3.1.169), şəxsi heyət (3.1.179), təminatçılar, bankirlər, tənzimləyicilər, ittifaqlar, tərəfdaşlar yaxud rəqiblər və ya əks təzyiq qruplarını ehtiva edə biləcək cəmiyyət.

Tərifə dair qeyd 1: Qərar qəbul edən tərəf maraqlı tərəf ola bilər.

Tərifə dair qeyd 2: Təsirə məruz qalan icmalar və yerli əhali maraqlı tərəflər hesab olunur.

Tərifə dair qeyd 3: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir. Əsas tərif nümunənin və tərifə dair qeydlərin əlavə edilməsi ilə dəyişdirilmişdir.

**3.1.133**
**daxili hücüm**

 ©AZSTAND –Bütün hüquqlar qorunur

qanuni istehsalçı, malın (3.3.8) yaradıcısı və ya hüquq sahibi (3.1.214) (hüquq sahibinin əməkdaşları, subpodratçı, təchizatçı və s.) ilə birbaşa və ya dolayısı ilə əlaqəli olan şəxslər və ya subyektlər (3.1.66) tərəfindən törədilən hücum (3.2.4)

**3.1.134**
**daxili audit**
təşkilat (3.1.165) tərəfindən və ya onun adından rəhbərlik (3.1.144) tərəfindən baxış (3.1.211) və digər daxili məqsədlər üçün aparılan və təşkilatın uyğunluq (3.1.44) üzrə özünü bəyan etməsinin əsasını formalaşdıra bilən audit (3.1.14)

**3.1.135**
**beynalxalq təchizat zənciri**
müəyyən bir mərhələdə beynəlxalq və ya iqtisadi sərhədi keçən təchizat zənciri (3.1.271)

Tərifə dair qeyd 1: Bu zəncirin bütün hissələri satınalma sifarişi tamamlandığı andan etibarən, mallar (3.3.8) təyinat ölkəsində və ya iqtisadi zonada gömrük nəzarətindən buraxılana qədər beynəlxalq hesab olunur.

Tərifə dair qeyd 2: Əgər müqavilələr və ya regional sazişlər müəyyən ölkələrdən və ya iqtisadi zonalardan gələn malların gömrük rəsmiləşdirilməsini aradan qaldırıbsa, beynəlxalq təchizat zəncirinin sonu bu sazişlər və müqavilələr mövcud olmasaydı, malların gömrükdən keçəcəyi təyinat ölkəsinə və ya iqtisadi zonaya giriş limanı hesab olunur.

**3.1.136**
**qarşılıqlı fəaliyyət**
<müxtəlif sistemlər> müxtəlif sistemlərin və təşkilatların (3.1.165) birgə işləmək qabiliyyəti

**3.1.137**
**qarşılıqlı fəaliyyət**
<vahid giriş nöqtəsi> vahid giriş nöqtəsinin xüsusi eyniləşdirmə göstəriciləri (XEG) (3.2.44) daşıyan obyektlər (3.1.161) üçün sorğuları etibarlı verifikasiya funksiyası (EVF) (3.2.43) üçün məsul səlahiyyətli mənbəyə (3.2.13) yönləndirmək qabiliyyəti

Tərifə dair qeyd 1: Qarşılıqlı fəaliyyət bir neçə autentifikasiya sisteminin istifadəçi qruplarına oxşar cavablar vermək qabiliyyətini əhatə edir.

[MƏNBƏ: ISO 16678:2014, 2.1.12]

**3.1.138**
**investisiya**
müəyyən edilmiş məqsədlərə (3.1.162) və digər faydalara (3.1.17) nail olmaq üçün resursların (3.1.207) ayrılması

Tərifə dair qeyd 1: İnvestisiya iki əsas formada həyata keçirilir: binalar, avadanlıqlar və oxşar aktivlər (3.1.13) üçün birbaşa xərclər və istiqrazlar və səhmlər kimi maliyyə baxımından qiymətli kağızlara üçün dolayı xərclər.

[MƏNBƏ: ISO/IEC 38500:2015, 2.13, dəyişdirilib — Tərifə dair qeyd 1 əlavə edilmişdir.]

**3.1.139**
**elan etmə**
bir təşkilatın (3.1.165) biznes davamlılığı (3.1.19) tədbirlərinin əsas məhsul və ya xidmətlərin (3.1.158) çatdırılmasını davam etdirmək üçün həyata keçirilməsinin zəruri olduğunu bəyan etmə hərəkəti

**3.1.140**
**əsas fəliyyət göstəricisi**

©AZSTAND –Bütün hüquqlar qorunur 

**ƏFG**

təşkilatın (3.1.165) fəaliyyət səmərəliliyini (3.1.177) strateji və əməliyyat məqsədlərinə (3.1.162) nail olması baxımından qiymətləndirmək və ya müqayisə etmək üçün istifadə etdiyi kəmiyyət baxımından ölçülə bilən göstərici

**3.1.141**

**torpaq sürüşməsi**

yamac əmələgətirən materiallar, o cümlədən qaya, torpaq, süni dolğu və ya bunların birləşməsinin aşağıya və xaricə doğru hərəkət etməsi ilə nəticələnən müxtəlif proseslər (3.1.190)

**3.1.142**

**baş vermə ehtimalı**

hadisənin baş verməsinin mümkünlük dərəcəsi

Tərifə dair qeyd 1: Risklərin idarə olunması (3.1.224) terminologiyasında "baş vermə ehtimalı" anlayışından obyektiv və ya subyektiv şəkildə, keyfiyyət və ya kəmiyyət baxımından müəyyən edilmiş, ölçülmüş və ya təyin edilmiş, habelə ümumi və ya riyazi terminlər vasitəsilə (məsələn, müəyyən bir müddət ərzində ehtimal (3.1.188) və ya tezlik) təsvir edilmiş bir şeyin baş verməsinin mümkünlüyünü ifadə etmək üçün istifadə edilir.

Tərifə dair qeyd 2: İngilis dilindəki "likelihood" (baş vermə ehtimalı) termininin bəzi dillərdə birbaşa ekvivalenti olmur; bunun əvəzinə ekvivalent kimi adətən "probability" (ehtimal) terminindən istifadə edilir. Lakin ingilis dilində "probability" (ehtimal) sözü adətən dar çərçivədə riyazi termin kimi təfsir olunur. Beləliklə, risklərin idarə olunması terminologiyasında "likelihood" (baş vermə ehtimalı) sözü ona görə istifadə edilir ki, ingilis dilindən başqa bir çox dillərdə "probability" (ehtimal) termininin ehtiva etdiyi geniş mənanı ifadə etsin.

[MƏNBƏ: ISO 31000:2018, 3.7]

**3.1.143**

**məntiqi struktur**

məlumatlara çıxış imkanını (3.1.1) və ya onların müəyyən bir istifadəçi (insan, yaxud maşın tərəfindən işlənilməsini optimallaşdırmaq üçün məlumatların təşkili

**3.1.144**

**idarəetmə**

təşkilatı (3.1.165) istiqamətləndirmək və idarə etmək üçün həyata keçirilən əlaqələndirilmiş fəaliyyətlər (3.1.2)

**3.1.145**

**idarəetmə planı**

adətən, idarəetmə (3.1.144) prosesini (3.1.190) həyata keçirmək üçün tələb olunan əsas heyəti (3.1.179),

resursları (3.1.207), xidmətləri və tədbirləri əhatə edən aydın şəkildə müəyyən edilmiş və sənədləşdirilmiş fəaliyyət planı

**3.1.146**

**idarəetmə sistemi**

təşkilatın (3.1.165) siyasətləri (3.1.182) və məqsədləri (3.1.162) və bu məqsədlərə nail olmaq üçün prosesləri (3.1.190) müəyyən etmək üçün bir-biri ilə qarşılıqlı əlaqədə olan və ya qarşılıqlı təsirə malik elementlərinin toplusu

Tərifə dair qeyd 1: İdarəetmə sistemi bir və ya bir neçə sahəni əhatə edə bilər.

Tərifə dair qeyd 2: Sistemin elementlərinə təşkilatın strukturu, vəzifə və öhdəlikləri, planlaşdırma (3.1.180) və fəaliyyəti daxildir.


©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 3: İdarəetmə sisteminin əhatə dairəsi bütün təşkilatı, təşkilatın xüsusi və müəyyən edilmiş funksiyalarını, təşkilatın xüsusi və müəyyən edilmiş bölmələrini və ya bir qrup təşkilatda bir və ya bir neçə funksiyanı əhatə edə bilər.

Tərifə dair qeyd 4: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.147**

**idarəetmə sistemi ilə bağlı məsləhətləşmə və/yaxud müvafiq risk qiymətləndirməsi**

təchizat zənciri (3.1.271) üzrə təhlükəsizliyi idarəetmə sisteminin (3.1.245) layihələndirilməsində, tətbiqində və ya saxlanmasında, eləcə də risklərin qiymətləndirilməsinin (3.1.219) aparılmasında iştirak (3.1.172)

NÜMUNƏ Təlimat kitabçaları və ya prosedurların (3.1.189) hazırlanması və ya tərtib edilməsi, təchizat zənciri üzrə təhlükəsizliyi idarəetmə sisteminin (3.1.146) qurulması və tətbiqi istiqamətində konkret məsləhətlər, göstərişlər və həllərin verilməsi, daxili auditlərin (3.1.34) aparılması, risklərin qiymətləndirilməsi və təhlilinin həyata keçirilməsi.

Tərifə dair qeyd 1: Təlimlərin (3.1.280) təşkili və təlimçi qismində iştirak məsləhətləşmə hesab edilmir, o şərtlə ki, təlim kursu təchizat zənciri üzrə təhlükəsizliyi idarəetmə sistemləri və ya auditlə bağlı olduqda, yalnız ictimaiyyət üçün açıq olan ümumi məlumatların (3.1.127) təqdim edilməsi ilə məhdudlaşsın, yəni təlimçi şirkətə məxsus həll yollarını təqdim etməsin.

**3.1.148**

**kütlələrin hərəkəti**

torpaq, qaya, palçıq, qar kimi maddələrin və ya maddələrin kombinasiyasının ağırlıq qüvvəsinin təsiri altında yamac boyunca yer dəyişməsi

**3.1.149**

**maddi mal**

istehsal olunmuş, becərilmiş və ya təbiətdən əldə edilmiş məhsul

**3.1.150**

**maddi malın həyat dövranı**

maddi malın (3.1.149) həyat dövranı boyunca keçdiyi mərhələlər, o cümlədən konsepsiya, layihələndirmə, istehsal, saxlanma, xidmət, təkrar satış və utilizasiya

**3.1.151**

**pozuntuya dözülə biləcək maksimum müddət**

**MTPD**

maksimum məqbul fasilə müddəti

MAO

bir məhsulun/xidmətin təqdim olunmaması və ya fəaliyyətin (3.1.2) yerinə yetirilməməsi nəticəsində meydana gələ biləcək mənfi təsirlərin (3.1.118) qəbuledilməz səviyyəyə çatması üçün lazım olan vaxt

**3.1.152**

**öçlmə**

dəyərin müəyyən edilməsi prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.153**

**minimum biznes davamlığı məqsədi**

**MBDM**

©AZSTAND –Bütün hüquqlar qorunur 

pozuntu (3.1.75) baş verdiyi zaman təşkilatın (3.1.165) biznes məqsədlərinə (3.1.162) nail olması üçün qəbul edilə bilən minimum imkan (3.1.25), yaxud xidmət və/və ya məhsul səviyyəsi

**3.1.154**
**təsirlərin azaldılması**
müəyyən bir insidentin (3.1.122) hər hansı mənfi nəticələrinin (3.1.46) məhdudlaşdırılması

**3.1.155**
**monitorinq**
bir sistemin, prosesin (3.1.190) və ya fəaliyyətin (3.1.2) vəziyyətinin müəyyən edilməsi

Tərifə dair qeyd 1: Vəziyyəti müəyyənləşdirmək üçün yoxlamaya, nəzarətə və ya tənqidi müşahidəyə ehtiyac ola bilər.

Tərifə dair qeyd 2: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.156**
**monitorinq prosesinə məsul şəxs**
məlumatların qəbul edilməsi, inteqrasiyası, yaradılması, təhlili, ötürülməsi və nəticəsinə cavabdeh olan fərdi və ya hüquqi şəxs (3.1.91).

Tərifə dair qeyd 1: Monitorinq prosesi (3.1.190) və ya monitorinq prosesi çərçivəsində sistem üzrə məsul şəxs (3.1.169), məsələn, bir subpodratçı tərəfindən təmsil oluna bilər.

**3.1.157**
**qarşılıqlı yardım razılaşması**
iki və ya daha çox qurumun (3.1.66) bir-birinə yardım göstərməsi üçün əvvəlcədən razılaşdırılmış anlaşma

**3.1.158**
**fövqəlladə vəziyyətlərdə əlaqə üçün təyin olunmuş şəxs**
təşkilatın (3.1.165) əlaqə saxlaması zəruri olduğu halda, fərdi işçi tərəfindən ilk təmas nöqtəsi olaraq namizəd göstərilən şəxs

Tərifə dair qeyd 1: Bu şəxs qanuni ən yaxın qohum ola bilər.

**3.1.159**
**uyğunsuzluq**
hər hansı bir tələbin (3.1.204) yerinə yetirilməməsi

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.160**
**bildiriş**
ictimai xəbərdarlığın (3.1.197) bir hissəsi olub, risk altında olan şəxslərə (3.1.176) fövqəladə vəziyyətlə (3.1.87) mübarizə aparmaq üçün zəruri qərarlar və tədbirlər haqqında əsas məlumatları (3.1.127) təqdim edir.

**3.1.161**
**obyekt**
tək və fərqli şəkildə müəyyən edilə bilən subyekt (3.1.91)

**3.1.162**
**məqsəd**


©AZSTAND –Bütün hüquqlar qorunur

əldə olunmalı nəticələr

Tərifə dair qeyd 1: Məqsəd strateji, taktiki və ya operativ xarakterli ola bilər.

Tərifə dair qeyd 2: Məqsədlər müxtəlif sahələrlə əlaqəli ola (məsələn, maliyyə, sağlamlıq və təhlükəsizliklə bağlı, həmçinin ekoloji məqsədlər) və müxtəlif səviyyələrdə tətbiq oluna bilər (məsələn, strateji, təşkilati, layihə, məhsul və proses (3.1.190)).

Tərifə dair qeyd 3: Məqsəd başqa formalarda, məsələn, nəzərdə tutulan nəticə, məqsəd, əməliyyat meyarı, biznesin davamlılığı (3.1.19) məqsədi kimi və ya oxşar mənaya malik digər sözlərdən (məs., məqsəd, amal və ya hədəf (3.1.273)) istifadə etməklə də ifadə oluna bilər.

Tərifə dair qeyd 4: Biznesin davamlılığını idarəetmə sistemləri (3.1.21) kontekstində biznesin davamlılığı üzrə məqsədlər biznesin davamlılığı siyasətinə (3.1.181) uyğun olaraq təşkilat (3.1.165) tərəfindən konkret nəticələrə nail olmaq üçün təyin olunur.

Tərifə dair qeyd 5: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.163**
**müşahidəçi**

məşğələni (3.1.97) müşahidə edən, lakin məşğələ fəaliyyətlərindən (3.1.2) ayrı qalan iştirakçı (3.1.171)

Tərifə dair qeyd 1: Müşahidəçilər qiymətləndirmə (3.1.95) prosesinin (3.1.190) bir hissəsi ola bilərlər.

**3.1.164**
**əməliyyat məlumatı**

vəziyyəti və onun mümkün inkişafını anlamaq üçün kontekstləşdirilmiş və təhlil edilmiş məlumat (3.1.127)

**3.1.165**
**təşkilat**

məqsədlərinə (3.1.162) nail olmaq üçün müəyyən edilmiş vəzifələr, səlahiyyətlər və əlaqələrdən ibarət funksiyaları olan şəxs və ya şəxslər qrupu

Tərifə dair qeyd 1: Təşkilat anlayışına dövlət və ya özəl, müstəqil və ya digərinin tərkibində olmasından asılı olmayaraq, fərdi sahibkar, şirkət, korporasiya, firma, müəssisə, orqan, tərəfdaşlıq (3.1.173), xeyriyyə təşkilatı və ya qurumu və ya onların hər hansı bir hissəsi və ya birləşməsi aiddir, lakin bunlarla məhdudlaşmır.

Tərifə dair qeyd 2: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.166**
**təşkilati mədəniyyət**

təşkilatın (3.1.165) fəaliyyət göstərdiyi unikal sosial və psixoloji mühiti formalaşdıran kollektiv inanclar, dəyərlər (3.1.287), münasibətlər və davranışlar

**3.1.167**
**təşkilati davamlıq**

təşkilatın (3.1.165) dəyişən mühiti mənimsəmə və bu mühitə uyğunlaşma qabiliyyəti

**3.1.168**
**kənar qaynaqlardan istifadə**

təşkilatın funksiya və ya prosesinin (3.1.190) bir hissəsinin kənar bir təşkilat (3.1.165) tərəfindən icrasını təşkil etmək

Tərifə dair qeyd 1: Kənar təşkilat idarəetmə sisteminin (3.1.146) tətbiq dairəsindən kənarda qalır, lakin kənar

©AZSTAND –Bütün hüquqlar qorunur 

qaynaqlardan istifadə edilərək icra olunan fəaliyyət və ya proses isə onun tətbiq dairəsinə daxildir.

Tərifə dair qeyd 2: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.169**
**məsul tərəf**
xüsusi eyniləşdirmə göstəricisi (3.2.44) ilə əlaqəli obyektin (3.1.161) lisenziyalaşdırılması, istifadə hüquqları və paylanmasını qanuni şəkildə nəzarətdə saxlayan qurum (3.1.91)

**3.1.170**
**parametr**
bir sistemin elementlərinin ölçülə bilən və ya nəzəri xüsusiyyətlərini təsvir edən konkret dəyər

**3.1.171**
**iştirakçı**
məşğələ (3.1.97) ilə əlaqəli bir funksiyanı yerinə yetirən şəxs və ya təşkilat (3.1.165)

**3.1.172**
**tərəfdaşlıq fəaliyyəti**
fərdi və kollektiv məqsədlərə (3.1.162) nail olmaq üçün ortaq maraq dairəsi və ya fəaliyyət (3.1.2) sahəsi üzrə başqaları ilə əməkdaşlıq etmək

**3.1.173**
**tərəfdaşlıq**
müvafiq qanunlara görə təhlükəsizliyə (3.1.239) və davamlılığa (3.1.206) təsir edən hər hansı bir insidentin (3.1.122) qarşısını almaq və idarə etmək üçün tətbiq sahəsini, vəzifələri, prosedurları (3.1.189) və alətləri müəyyənləşdirən, iki qurum arasında (dövlət-dövlət, özəl-dövlət, özəl-özəl) mütəşəkkil əlaqə

**3.1.174**
**həmkarlar tərəfindən baxış**
ev sahibi qurumun (3.1.112) fəaliyyətini (3.1.177) araşdırmaq, təhlil ediləcək sahə (3.1.10) üzrə rəy bildirmək və öz kontekstinə (3.1.47) ötürülə bilən dərslər çıxarmaq üçün baxış keçirən tərəfin (3.1.213) tətbiq etdiyi proses (3.1.190)

Tərifə dair qeyd 1: Həmkarlar tərəfindən baxış bir neçə təhlil sahəsini əhatə edə bilər.

Tərifə dair qeyd 2: Ev sahibi qurum fəaliyyəti (3.1.2) daha yaxşı təsvir etmək üçün "baxış" (review) terminini "qiymətləndirmə" (assessment), "dəyərləndirmə" (appraisal) və ya "təhlil" (analysis) kimi sinonimlərlə əvəz edə bilər.

**3.1.175**
**biznes davamlılığının insan aspektləri**
narahatlığı minimuma endirmək, məhsuldarlığı və bərpanı (3.1.201) maksimuma çatdırmaq və təşkilatın (3.1.165) biznesin davamlılığı proqramının (3.1.23) bərpa ilə bağlı məqsədlərinə (3.1.162) nail olmaq üçün insidentdə (3.1.122) iştirak edən və ya ondan təsirlənən insanların idarə edilməsi (3.1.144) ilə əlaqəli elementlər

**3.1.176**
**risk altında olan şəxslər**
insident (3.1.122) nəticəsində təsirə məruz qala biləcək ərazidə olan şəxslər


©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.177**
**fəliyyət səmərəliliyi**
ölçülə bilən nəticə

Tərifə dair qeyd 1: Fəaliyyət səmərəliliyi kəmiyyət və ya keyfiyyət əsaslı göstəricilərə aid ola bilər.

Tərifə dair qeyd 2: Fəaliyyət səmərəliliyi fəaliyyətlərin (3.1.2), proseslərin (3.1.190), məhsulların (o cümlədən xidmətlərin), sistemlərin və ya təşkilatların (3.1.165) idarə olunması ilə əlaqəli ola bilər.

Tərifə dair qeyd 3: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.178**
**fəliyyət səmərəliliyinin qiymətləndirilməsi**
müəyyən edilmiş meyarlara uyğun ölçülə bilən nəticələri müəyyən etmək üçün aparılan proses (3.1.190)

**3.1.179**
**şəxsi heyət**
təşkilat (3.1.165) üçün işləyən və onun nəzarəti altında olan şəxslər

Tərifə dair qeyd 1: Şəxsi heyət anlayışına əməkdaşlar, natamam iş qrafiki ilə işləyən heyət və agentlik işçiləri daxildir, lakin bununla məhdudlaşmır.

**3.1.180**
**planlaşdırma**
idarəetmənin məqsədlərin (3.1.162) müəyyən edilməsi, onların yerinə yetirilməsi üçün zəruri əməliyyat proseslərinin (3.1.190) və müvafiq resursların (3.1.207) təyin edilməsinə yönələn (3.1.144) bir hissəsi

**3.1.181**
**siyasət**
təşkilatın (3.1.165) öz ali rəhbərliyi (3.1.279) tərəfindən rəsmi qaydada ifadə olunan niyyətləri və istiqaməti

Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.182**
**hazırlıq**
hazırlıq vəziyyəti

pozuntuların (3.1.75), fövqəladə vəziyyətlərin (3.1.63), yaxud fəlakətlərin (3.1.73) qarşısının alınmasını (3.1.183), bunlardan müdafiəni (3.1.193), təsirlərinin azaldılmasını (3.1.154), cavab tədbirlərini və bu vəziyyətlərdən sonra bərpanı (3.1.201) dəstəkləmək və gücləndirmək üçün istifadə edilə bilən, insidentdən (3.1.122) əvvəl hazırlanan və həyata keçirilən fəaliyyətlər (3.1.2), proqramlar və sistemlər

**3.1.183**
**profilaktika**
təşkilata (3.1.165) arzuedilməz hadisənin (3.1.281) və ya potensial pozuntunun (3.1.75) təsirinin (3.1.118) qarşısını almağa, mane olmağa və ya minimuma endirməyə imkan verən tədbirlər

**3.1.184**

**təhlükələrin və təhdidlərin qarşısının alınması**

potensial baş vermə ehtimalını (3.1.142), yaxud nəticələrini (3.1.46) azaltmaq məqsədilə istənilən növ təhlükələrin (3.1.110) və təhdidlərin (3.1.277) və onlarla bağlı risklərin (3.1.215) qarşısını almaq, azaltmaq, yaxud nəzarət etmək üçün istifadə olunan proses (3.1.190), təcrübələr, üsullar, materiallar, məhsullar, xidmətlər və ya resurslar (3.1.207)

**3.1.185**
**qabaqlayıcı tədbir**

potensial uyğunsuzluğun (3.1.159) və ya digər arzuolunmaz vəziyyətin səbəbini aradan qaldırmaq üçün həyata keçirilən tədbir

Tərifə dair qeyd 1: Bir potensial uyğunsuzluğun bir neçə səbəbi ola bilər.

Tərifə dair qeyd 2: Qabaqlayıcı tədbir hadisənin baş verməsinin qarşısını almaq üçün həyata keçirilir, təshihedici tədbir (3.1.55) isə təkrarlanmanın qarşısını almaq üçün görülür.

[MƏNBƏ: ISO 9000:2015, 3.12.1]

**3.1.186**
**prioritet fəaliyyət**

pozuntu baş verdiyi zaman biznesə yönələn qəbuledilməz təsirlərin qarşısını almaq üçün təcili şəkildə icra edilən fəaliyyət (3.1.2)

**3.1.187**
**özəl təhlükəsizlik xidməti təminatçısı**
**ÖTXT**

özəl təhlükəsizlik şirkəti ÖTŞ

təhlükəsizlik əməliyyatlarını (3.1.249) həyata keçirən və ya bu əməliyyatları müqavilə əsasında icra edən, eyni zamanda biznes fəaliyyətlərinə (3.1.2) öz adından və ya başqasının adından təhlükəsizlik (3.1.239) xidmətlərinin göstərilməsi daxil olan təşkilat (3.1.165)

Tərifə dair qeyd 1: ÖTXT-lər sifarişçilərə (3.1.33) onların və digər şəxslərin təhlükəsizliyini təmin etmək məqsədilə xidmətlər göstərir.

Tərifə dair qeyd 2: ÖTXT-lər adətən idarəetmənin zəif olduğu və ya qanunun aliliyinin insan və ya təbii hadisələr (3.1.96) səbəbindən pozulduğu hallarda fəaliyyət göstərir və şəxsi heyətin (3.1.179) müqavilə şərtlərinə uyğun olaraq öz vəzifələrini yerinə yetirərkən (3.1.177) silah gəzdirmək məcburiyyətində ola biləcəyi xidmətlər göstərir.

Tərifə dair qeyd 3: ÖTXT-lər tərəfindən göstərilən təhlükəsizlik xidmətlərinə aid nümunələrə aşağıdakılar daxildir: mühafizə; yaxın mühafizə; fiziki mühafizə tədbirləri; təhlükəsizlik barədə məlumatlılıq və təlim (3.1.280); riskin (3.1.215), təhlükəsizliyin və təhdidin (3.1.277) qiymətləndirilməsi; fiziki şəxslərin yaşayış sahələrinin, diplomatik və yaşayış ərazilərinin mühafizəsi və müdafiəsi üzrə tədbirlərin təmin edilməsi; nəqliyyatın müşayiət edilməsi; və siyasətin (3.1.181) təhlili.

Tərifə dair qeyd 4: Birgə müəssisə təşkilatın bir hissəsi hesab olunur.

**3.1.188**
**ehtimal**

hadisənin başvermə mümkünlüyünün 0 ilə 1 arasında ifadə olunan ölçüsü, burada 0 mümkünsüzlük, 1 isə tam əminlik göstəricisidir.

Tərifə dair qeyd 1: Həmçinin baxın: baş vermə ehtimalı (3.1.142).

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.6.1.4]

**3.1.189**
**prosedur**

bir fəaliyyətin (3.1.2) və ya prosesin (3.1.190) müəyyən edilmiş üsulla həyata keçirilməsi

Tərifə dair qeyd 1: Prosedurlar sənədləşdirilmiş və ya sənədləşdirilməmiş ola bilər.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 2: Prosedur sənədləşdirildikdə, çox vaxt “yazılı prosedur” və ya “sənədləşdirilmiş prosedur” termini istifadə olunur. Proseduru özündə əks etdirən sənəd “prosedur sənədi” adlandırıla bilər.

**3.1.190**
**proses**
resursları nəticələrə çevirən, bir-biri ilə qarşılıqlı əlaqədə olan və ya qarşılıqlı təsirə malik fəaliyyətlər (3.1.2) toplusu
Tərifə dair qeyd 1: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.191**
**məhsul və xidmət**
bir təşkilat (3.1.165) tərəfindən maraqlı tərəflərə (3.1.132) təqdim edilən aralıq və yekun nəticə
NÜMUNƏ İstehsal edilmiş əşyalar, avtomobil sığortası, icmaya qayğı xidməti.

**3.1.192**
**məhsul saxtakarlığı**
maddi mallardan (3.1.149) maliyyə və ya şəxsi mənfəət əldə etmək məqsədilə istifadə edən qanunsuz və ya cinayət xarakterli aldatma
Tərifə dair qeyd 1: Saxtakarlıq maliyyə və ya şəxsi mənfəət əldə etmək məqsədilə edilən və sosial və ya iqtisadi zərərə səbəb olan qanunsuz və ya cinayət xarakterli aldatmadır.
Tərifə dair qeyd 2: Məhsullara maddi mallarda saxlanan elektron media daxildir.
Tərifə dair qeyd 3: Rəqəmsal olaraq ötürülən elektron media ilə bağlı saxtakarlıq ayrıca nəzərdən keçirilməlidir.

**3.1.193**
**müdafiə**
təşkilatı (3.1.165) qoruyan və ona potensial pozuntunun (3.1.75) təsirini (3.1.118) azaltmağa imkan verən tədbirlər

**3.1.194**
**psixoloji kritik hadisə**
insanların adi fəaliyyətlərində əhəmiyyətli emosional və ya fiziki narahatlıq, psixoloji pozuntu və ya dəyişiklik yarada bilən hadisə (3.1.96) və ya hadisələr silsiləsi
Tərifə dair qeyd 1: Bu sahədə çalışan psixi sağlamlıq mütəxəssisləri adətən “travmatik hadisə”ni kritik psixoloji hadisə adlandırırlar. “Psixoloji kritik hadisə” termininə isə daha çox üstünlük verilir, çünki bu termin cəlb olunan fərd üçün travmatik olub-olmamasından asılı olmayan bir hadisəni (3.1.122) nəzərdə tutur. Psixiatriya və elmi ictimaiyyətdə travmatik hadisə üçün müxtəlif təriflər mövcud olsa da, “psixoloji kritik hadisə” reallığa daha uyğun bir anlayış təqdim edir.

**3.1.195**
**psixoloji maarıfləndirmə**
psixoloji rifahla bağlı məsləhət və rəhbərliyin təmin edilməsi
Tərifə dair qeyd 1: Bu adətən, narahatlıq yaradan hadisələrə (3.1.96) qarşı insanların ümumi reaksiyalarının normallaşdırılması, narahatlığın azaldılması, ilk bir neçə gündə bərpa prosesini asanlaşdırmaq üçün sadə özünəyardım strategiyalarının təmin edilməsi, eləcə də əlavə dəstəyə nə vaxt və harada müraciət edilməsi üzrə icmalı ehtiva edir.

**3.1.196**

**ilkin psixoloji yardım**

ilkin fiziki yardım anlayışı ilə müqayisə edilə bilən, müvəqqəti və dəstəkləyici müdaxilə

Tərifə dair qeyd 1: Bu yardımın məqsədləri böhran (3.1.60) vəziyyətini sabitləşdirmək, emosional narahatlığı azaltmaq, özünə qayğı və psixoloji maarifləndirmə (3.1.195) haqqında məsləhət vermək, peşəkar yardıma ehtiyacı ola biləcək insanları müəyyənləşdirmək və zərurət olduqda onları əlavə yardıma yönləndirməkdir.

**3.1.197**
**ictimai xəbərdarlıq**

cavabvermə üzrə məsul şəxslər və risk altında olan şəxslərin (3.1.176) təhlükəsizlik tədbirləri görməsinə imkan yaratmaq üçün insidentə cavabvermə (3.1.126) kimi yayılan bildiriş (3.1.160) və xəbərdarlıq (3.1.6) mesajları

Tərifə dair qeyd 1: İctimai xəbərdarlıq əhalinin məlumatlılığını və anlayışını artırmaq, yaxud məcburi və ya məsləhət xarakterli təlimatlar vermək məqsədilə məlumatları (3.1.127) ehtiva edə bilər.

**3.1.198**
**ictimai xəbərdarlıq sistemi**

davam etməkdə olan fövqəladə vəziyyətlərdə (3.1.87) risk altında olan şəxslərə (3.1.176) və ilkin cavabvermə üzrə məsul şəxslərə bildiriş (3.1.160) və xəbərdarlıq (3.1.6) mesajlarını çatdırmaq üçün ictimai xəbərdarlıq (3.1.197) siyasətinə (3.1.181) əsaslanan protokollar, proseslər (3.1.190) və texnologiyalar toplusu

**3.1.199**
**xammal**

maddi malın (3.1.149) hər hansı elementi, tərkib hissəsi və ya bir hissəsi

**3.1.200**
**qeyd**

əldə edilmiş nəticələri göstərən və ya icra edilmiş fəaliyyətlərə (3.1.2) dair sübut təqdim edən sənəd (3.1.77)

[MƏNBƏ: ISO 9000:2015, 3.8.10, dəyişdirilib — Tərifə dair 1 və 2-ci qeydlər çıxarılmışdır.]

**3.1.201**
**bərpa**

mümkün olduqda, təsirə məruz qalmış təşkilatların (3.1.165) əməliyyatlarının, obyektlərinin (3.1.104), dolanışıq vasitələrinin və ya yaşayış şəraitinin bərpası və təkmilləşdirilməsi, o cümlədən risk (3.1.216) amillərinin azaldılmasına yönəlmiş səylər

**3.1.202**
**hədəf bərpa nöqtəsi**
**RPO**

fəaliyyətin (3.1.2) yenidən başlanmasına imkan yaratmaq üçün istifadə edilən məlumatın (3.1.127) bərpa olunduğu nöqtə

Tərifə dair qeyd 1: “Maksimal məlumat itkisi” termini ilə də ifadə edilə bilər.

**3.1.203**
**hədəf bərpa müddəti**
**RTO**


©AZSTAND –Bütün hüquqlar qorunur

insidentdən (3.1.122) sonra məhsul və xidmətin (3.1.191) və ya fəaliyyətin (3.1.2) yenidən davam etdirilməsi və ya resursların (3.1.207) bərpa edilməsi üçün tələb olunan zaman müddəti

Tərifə dair qeyd 1: Məhsullar, xidmətlər və fəaliyyətlər üçün RTO məhsulun/xidmətin təqdim edilməməsi və ya fəaliyyətin icra olunmaması nəticəsində yaranacaq mənfi təsirlərin (3.1.118) qəbuledilməz həddə çatacağı müddətdən daha qısa bir müddəti əhatə edir.

**3.1.204**
**tələb**
bəyan edilən, bir qayda olaraq nəzərdə tutulan və ya icbari xarakter daşıyan ehtiyac və ya gözlənti

Tərifə dair qeyd 1: "Bir qayda olaraq nəzərdə tutulan" o deməkdir ki, nəzərdən keçirilən ehtiyac və ya gözləntinin nəzərdə tutulması təşkilat (3.1.165) və maraqlı tərəflər (3.1.132) üçün adət və ya adi təcrübədir.

Tərifə dair qeyd 2: Müəyyən edilmiş tələb, məsələn, sənədləşdirilmiş informasiyada (3.1.78) bəyan olunan tələbdir.

Tərifə dair qeyd 3: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.205**
**qalıq risk**
saxlanılan risk
risklərin aradan qaldırılması (3.1.232) tədbirlərindən sonra qalan risk

Tərifə dair qeyd 1: Qalıq risk müəyyən edilməmiş riskləri də özündə ehtiva edə bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.8.1.6, dəyişdirilib – “saxlanılan risk” qəbul edilmiş termin kimi əlavə edilmiş və Tərifə dair qeyd 2 silinmişdir.]

**3.1.206**
**davamlılıq**
dəyişən mühiti mənimsəmə və bu mühitə uyğunlaşma qabiliyyəti

Tərifə dair qeyd 1: Şəhər davamlılığı (3.1.284) kontekstində (3.1.47) dəyişən mühiti mənimsəmək və ona uyğunlaşmaq qabiliyyəti şəhər sisteminin (3.1.285) hər bir fərdi komponentinin təhdidlərə (3.1.277) və imkanlara qarşı qabaqcadan tədbir görmək, hazırlaşmaq və cavab vermək üçün birgə potensialı ilə müəyyən edilir.

**3.1.207**
**resurs**
bir təşkilatın (3.1.165) fəaliyyət göstərməsi və məqsədinə (3.1.162) çatması üçün lazım olduqda əlçatan olmalı olan bütün aktivlər (3.1.13) (o cümlədən qurğu və avadanlıqlar), insanlar, bacarıqlar, texnologiya, obyektlər, ləvazimatlar və məlumatlar (3.1.127) (elektron olub-olmamasından asılı olmayaraq)

**3.1.208**
**cavabvermə planı**
insidentə (3.1.122) hazırlıq (3.1.182) məqsədilə hazırlanmış, tərtib edilmiş və saxlanılan sənədləşdirilmiş prosedurlar (3.1.189) və məlumatlar (3.1.127) toplusu

**3.1.209**
**cavabvermə proqramı**

həyatı, əmlakı, əməliyyatları və mühüm əhəmiyyətə malik aktivləri (3.1.13) qorumaq və mühafizə etmək üçün zəruri fəaliyyətlərin (3.1.2) və xidmətlərin yerinə yetirilməsini təmin edən plan, proseslər (3.1.190) və resurslar (3.1.207)

Tərifə dair qeyd 1: Cavabvermə üzrə addımlar adətən insidentin (3.1.122) müəyyənləşdirilməsi, bildirişin (3.1.160) verilməsi, qiymətləndirmə, elan etmə, planın icrası, kommunikasiya və resursların idarə edilməsini (3.1.144) əhatə edir.

**3.1.210**
**cavabvermə qrupu**
cavabvermə planının (3.1.208), o cümlədən proseslər (3.1.190) və prosedurların (3.1.189) hazırlanması, icrası, sınaqdan keçirilməsi və saxlanılmasına məsul olan fərdlər qrupu

**3.1.211**
**baxış**
idarəetmə sisteminin (3.1.146) və onun komponent elementlərinin müəyyən edilmiş məqsədlərə (3.1.162) nail olmaq üçün uyğunluğunu, adekvatlığını və effektivliyini (3.1.86) müəyyən etmək məqsədilə həyata keçirilən fəaliyyət (3.1.2)

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.8.2.2, dəyişdirilib –"idarəetmə sistemi və onun komponent elementləri" ifadəsi "mövzu" ifadəsini əvəz etmiş və Tərifə dair qeyd 1 silinmişdir.]

**3.1.212**
**baxış məqsədilə həyata keçirilən səfər**
həmkarlar tərəfindən baxış (3.1.174) fəaliyyətlərində (3.1.2) baxış keçirən tərəflərin (3.1.213) ev sahibi (3.1.112) məkan(lar)ında iştirakı (3.1.172)
Tərifə dair qeyd 1: Baxış məqsədilə həyata keçirilən səfər çərçivəsində həyata keçirilən fəaliyyətlərə təqdimatlar, fərdi müsahibələr, fokus qrupları, sahə səfərləri və real vaxt rejimində və müzakirə əsaslı təlimlərin (3.1.97) müşahidəsi daxildir.

**3.1.213**
**baxış keçirən tərəf**
həmkarlar tərəfindən baxış (3.1.174) çərçivəsində rəy verən və təhlil sahəsində (3.1.10) mütəxəssis biliyinə və təcrübəsinə malik olan subyekt (3.1.91)
Tərifə dair qeyd 1: Bu subyekt təşkilat (3.1.165), tərəfdaşlıq (3.1.173), icma (3.1.39), şəhər, region, ölkə və ya başqa bir qurum ola bilər.

**3.1.214**
**hüquq sahibi**
bir və ya bir neçə əqli mülkiyyət hüququna malik olan və ya onlardan istifadə etməyə səlahiyyəti olan hüquqi şəxs (3.1.91)

**3.1.215**
**risk**
qeyri-müəyyənliyin məqsədlərə (3.1.162) təsiri
Tərifə dair qeyd 1: Təsir gözləniləndən kənaraçıxmadır. O, müsbət, mənfi və ya hər ikisi ola bilər və imkan və təhdidləri (3.1.277) əhatə edə, onları yarada və onların yaranmasına səbəb ola bilər.
Tərifə dair qeyd 2: Məqsədlər müxtəlif aspektlərə və kateqoriyalara malik ola və müxtəlif səviyyələrdə tətbiq edilə bilər.
Tərifə dair qeyd 3: Risk adətən risk mənbələri (3.1.230), potensial hadisələr (3.1.96), onların nəticələri (3.1.45) və ehtimalları (3.1.142) baxımından ifadə olunur.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 4: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir. Bu tərif ISO 31000:2018 standartının 3.1-ci bəndindən götürülmüşdür, burada "məqsədlərə" sözü tərifə əlavə edilmiş və tərifə dair qeydlər dəyişdirilmişdir.]

[MƏNBƏ: ISO 31000:2018, 3.1]

**3.1.216**

**riskin qəbul edilməsi**

müəyyən bir riskin (3.1.215) alınması ilə bağlı düşünülmüş qərar

Tərifə dair qeyd 1: Riskin qəbul edilməsi risk aradan qaldırılmadan (3.1.232) və ya riskin aradan qaldırılması prosesi (3.1.190) zamanı baş verə bilər.

Tərifə dair qeyd 2: Qəbul edilmiş risklər monitorinq (3.1.155) və baxış (3.1.211) prosesindən keçir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.7.1.6]

**3.1.217**

**riskin təhlili**

riskin (3.1.215) mahiyyətini anlamaq və onun səviyyəsini müəyyən etmək üçün aparılan proses (3.1.190)

Tərifə dair qeyd 1: Riskin təhlil edilməsi riskin dəyərləndirilməsi (3.1.222) və riskin aradan qaldırılması (3.1.232) ilə bağlı qərarların əsasını təşkil edir.

Tərifə dair qeyd 2: Risklərin təhlil edilməsi riskin təxmin edilməsini də əhatə edir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.6.1]

**3.1.218**

**risk iştahası**

təşkilatın (3.1.165) qəbul etmək və ya saxlamaq istədiyi riskin (3.1.215) miqdarı və növü

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.7.1.2]

**3.1.219**

**riskin qiymətləndirilməsi**

risklərin müəyyənləşdirilməsi (3.1.223), riskin təhlili (3.1.217) və riskin dəyərləndirilməsindən (3.1.222) ibarət ümumi bir proses (3.1.190)

Tərifə dair qeyd 1: Risklərin qiymətləndirilməsi daxili və xarici təhdidlərin (3.1.277) və zəifliklərin müəyyən edilməsini, bu təhdidlər və zəifliklərdən qaynaqlanan hadisənin (3.1.96) başvermə ehtimalının (3.1.142) və təsirinin (3.1.119) müəyyənləşdirilməsini, təşkilatın (3.1.165) fəaliyyətinin davam etdirilməsi üçün zəruri olan kritik funksiyaların təyin edilməsini, riskə məruz qalma səviyyəsini azaltmaq üçün mövcud nəzarət mexanizmlərinin təyin edilməsini və bu nəzarət mexanizmlərinin dəyərinin qiymətləndirilməsini əhatə edir.

Tərifə dair qeyd 2: Risklərin qiymətləndirilməsi ISO 31000:2018 standartında ətraflı təsvir edilmişdir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.4.1, dəyişdirilib — Tərifə dair 1 və 2-ci qeydlər əlavə edilmişdir.]

**3.1.220**

**risklər barədə məlumatlandırma**

risk (3.1.215) haqqında məlumatların (3.1.127) qərar qəbul edən və digər maraqlı tərəflər (3.1.132) arasında mübadiləsi və ya paylaşılması

Tərifə dair qeyd 1: Məlumatlar riskin mövcudluğu, mahiyyəti, forması, ehtimalı (3.1.188), ciddiliyi, məqbulluğu, aradan qaldırılması və ya digər aspektləri ilə bağlı ola bilər.

**3.1.221**

**risk meyarları**

riskin (3.1.215) əhəmiyyətinin qiymətləndirildiyi texniki şərtlər

Tərifə dair qeyd 1: Risk meyarları təşkilatın məqsədlərinə (3.1.162) və daxili və xarici kontekstə əsaslanır.

Tərifə dair qeyd 2: Risk meyarları standartlardan, qanunlardan, siyasətlərdən (3.1.182) və digər tələblərdən (3.1.204) əldə edilə bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.3.1.3]

**3.1.222**

**riskin dəyərləndirilməsi**

riskin (3.1.215) və/və ya onun miqyasının məqbul olub-olmadığını və ya qəbul edilə bilib-bilməyəcəyini müəyyən etmək üçün risklərin təhlilinin (3.1.217) nəticələrinin risk meyarları (3.1.221) ilə müqayisə edilməsi prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Risklərin dəyərləndirilməsi riskin aradan qaldırılması (3.1.232) ilə bağlı qərar qəbul edilməsinə kömək edir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.7.1]

**3.1.223**

**risklərin müəyyənləşdirilməsi**

risklərin (3.1.215) aşkarlanması, tanınması və təsvir edilməsi prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Risklərin müəyyənləşdirilməsi risk mənbələrinin (3.1.230), hadisələrin (3.1.96), onların səbəblərinin və potensial nəticələrinin (3.1.45) müəyyən edilməsini əhatə edir.

Tərifə dair qeyd 2: Riskin müəyyən edilməsi çoxillik məlumatlar, nəzəri təhlil, məlumatlara əsaslanan və ekspert rəyini, eləcə də maraqlı tərəflərin (3.1.132) ehtiyaclarını əhatə edə bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.5.1, dəyişdirilib – Tərifə dair qeyd 2-də “interested parties” (maraqlı tərəflər) ifadəsi “stakeholders” (maraqlı tərəflər) ifadəsini əvəz etmişdir.]

**3.1.224**

**risklərin idarə olunması**

risk (3.1.215) ilə bağlı təşkilatın (3.1.165) istiqamətləndirilməsi və idarə olunmasına yönəlmiş əlaqələndirilmiş fəaliyyətlər (3.1.2)

[MƏNBƏ: ISO 31000:2018, 3.2]

**3.1.225**

**risklərin təsirlərinin azaldılması**

təhlükəli hadisənin (3.1.96) mənfi təsirlərinin (3.1.118) azaldılması və ya minimuma endirilməsi

**3.1.226**

**risk sahibi**

riskin (3.1.215) idarə edilməsi üçün hesabatlılıq və səlahiyyət daşıyan qurum (3.1.91)

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.5.1.5, dəyişdirilib – “qurum” ifadəsi “şəxs və ya qurum” ifadəsini əvəz etmişdir.]

**3.1.227**

**risklərin azaldılması**

risklə (3.1.215) bağlı ehtimalın (3.1.188) və ya mənfi nəticələrin (3.1.45) və ya hər ikisinin azaldılması üçün görülən tədbirlər

**3.1.228**

**risk reyestri**


©AZSTAND –Bütün hüquqlar qorunur

müəyyən edilmiş risklər (3.1.215) haqqında məlumatların (3.1.127) saxlanıldığı qeydlər (3.1.200)

Tərifə dair qeyd 1: Müəyyən edilmiş, təhlil olunmuş və qiymətləndirilmiş bütün risklərin riskin qiymətləndirilməsi (3.1.219) prosesi (3.1.190) çərçivəsində tərtib edilməsi, o cümlədən risk reyestri üzrə məlumatlar başvermə ehtimalı (3.1.142), nəticələr (3.1.45), riskin aradan qaldırılması tədbirləri və risk sahibləri (3.1.226) haqqında məlumatları əhatə edir.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.8.2.4, dəyişdirilib — Tərifə dair qeyd 1 əvəz edilmişdir.]

**3.1.229**
**riskin bölüşdürülməsi**

riskin (3.1.215) digər tərəflərlə razılaşdırılmış şəkildə bölüşdürülməsini ehtiva edən, riskin aradan qaldırılması (3.1.232) forması

Tərifə dair qeyd 1: Hüquqi və ya normativ tələblər (3.1.204) riskin bölüşdürülməsini məhdudlaşdıra, qadağan edə və ya məcburi edə bilər.

Tərifə dair qeyd 2: Riskin bölüşdürülməsi sığorta və ya digər müqavilə formaları vasitəsilə həyata keçirilə bilər.

Tərifə dair qeyd 3: Riskin hansı dərəcədə bölüşdürülməsi bölgü razılaşmalarının etibarlılığı və aydınlığından asılı ola bilər.

Tərifə dair qeyd 4: Riskin ötürülməsi riskin bölüşdürülməsinin bir formasıdır.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.8.1.3]

**3.1.230**
**risk mənbəyi**

ayrılıqda və ya birgə şəkildə risk (3.1.215) yaratma potensialına malik element

[MƏNBƏ: ISO 31000:2018, 3.4]

**3.1.231**
**risk tolerantlığı**

təşkilatın (3.1.165) və ya maraqlı tərəflərin (3.1.132) öz məqsədlərinə (3.1.162) nail olmaq üçün riskin aradan qaldırılmasından (3.1.232) sonra riski (3.1.215) daşımağa hazır olması

Tərifə dair qeyd 1: Risk tolerantlığına sifarişçi (3.1.33), maraqlı tərəflər, hüquqi və ya normativ tələblər (3.1.204) təsir göstərə bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.7.1.3, dəyişdirilib — “interested party” (maraqlı tərəf) ifadəsi “stakeholder” (maraqlı tərəf) sözünü əvəz etmiş və Tərifə dair qeyd 1 dəyişdirilmişdir.]

**3.1.232**
**riskin aradan qaldırılması**

riski (3.1.215) dəyişdirmə prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Riskin aradan qaldırılması aşağıdakıları ehtiva edə bilər:

— riskə zəmin yaradan fəaliyyətə (3.1.2) başlamamağa və ya bu cür fəaliyyəti davam etdirməməyə qərar verməklə riskdən yayınmaq;

— müəyyən fürsətdən yararlanmaq məqsədilə riski qəbul etmək və ya artırmaq;

— riskin mənbəyini (3.1.230) aradan qaldırmaq;

— başvermə ehtimalını (3.1.142) dəyişdirmək;

— nəticələri (3.1.45) dəyişdirmək;

— riski başqa bir tərəflə və ya tərəflərlə bölüşmək (o cümlədən müqavilələr və risk maliyyələşməsi);

— məlumatlara əsaslanan qərar əsasında riski saxlamaq.

©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 2: Mənfi nəticələrin aradan qaldırılmasına yönələn riskin aradan qaldırılması tədbirlərinə bəzən "riskin təsirinin azaldılması", " riskin aradan qaldırılması", "riskin qarşısının alınması" və "riskin azaldılması" (3.1.227) da deyilir.

Tərifə dair qeyd 3: Riskin aradan qaldırılması yeni risklər yarada və ya mövcud riskləri dəyişdirə bilər.

[MƏNBƏ: ISO/Təlimat 73:2009, 3.8.1]

**3.1.233**
**dayanıqlıq**
sistemin virtual və ya fiziki, daxili və ya xarici hücumlara (3.2.4) qarşı müqavimət göstərmək qabiliyyəti

Tərifə dair qeyd 1: Xüsusilə, təqlid, surət çıxarma, müdaxilə və ya təhlükəsizlik baryerini aşma cəhdlərinə qarşı müqavimət qabiliyyəti nəzərdə tutulur.

**3.1.234**
**ssenari**
məşğələni (3.1.97) istiqamətləndirən əvvəlcədən planlaşdırılmış süjet xətti, həmçinin məşğələ layihəsinin icra (3.1.177) məqsədlərinə (3.1.162) nail olmaq üçün istifadə edilən stimullar

**3.1.235**
**məşğələnin əhatə dairəsi**
məşğələnin miqyası, resursları (3.1.207) və ehtiyacları və məqsədləri (3.1.162) əks etdirən həcmi

**3.1.236**
**xidmətin əhatə dairəsi**
təchizat zəncirindəki (3.3.9) bir təşkilatın yerinə yetirdiyi funksiya(lar) və bu funksiya(lar)ın icra edildiyi yerlər

**3.1.237**
**ssenarı mətni**
məşğələnin (3.1.97) hazırlanması zamanı hadisələrin (3.1.96) necə irəliləməli olduğunu anlamağa imkan verən və əsas hadisələrdən ibarət siyahının müxtəlif elementləri tətbiq edildikcə heyəti istiqamətləndirməyə imkan yaradan hekayə

Tərifə dair qeyd 1: Ssenari mətnləri çox vaxt simulyasiya olunmuş hadisələrin təsviri kimi yazılır.

**3.1.238**
**məxfi məlumat**
səlahiyyəti olmayan qurumlara (3.1.66) açıqlanmasının qarşısı alınan məlumat və/və ya bilik

**3.1.239**
**təhlükəsizlik**
prosedurlara (3.1.189) əməl olunduğu və ya müvafiq tədbirlər görüldükdən sonra təhlükə və ya təhdiddən (3.1.277) uzaq vəziyyət

**3.1.240**
**təhlükəsizlik aspekti**
bir təşkilatın (3.1.165) və onun maraqlı tərəflərinin (3.1.132) məhsul və xidmətlərini (3.1.158), əməliyyatlarını, mühüm əhəmiyyətə malik aktivlərini (3.1.13) və davamlılığını


©AZSTAND –Bütün hüquqlar qorunur

(3.1.50) pozan və onlar üzərində nəticələri (3.1.45) olan qəsdən, təsadüfən və ya təbii yolla baş verən böhran (3.1.47) və fəlakət (3.1.73) riskini (3.1.215) azaldan xüsusiyyət, element və ya keyfiyyət

**3.1.241**
**təhlükəsizlik bəyannaməsi**
təhlükəsizlik baxımından həssas xarakterli məlumatlara (3.1.257) çıxış imkanı (3.1.1) olacaq şəxslərin etibarlılığının yoxlanılması prosesi (3.1.190)

**3.1.242**
**təhlükəsizlik bəyannaməsi**
bir biznes tərəfdaşı (3.3.3) tərəfindən verilən və onun həyata keçirdiyi təhlükəsizlik (3.1.239) tədbirlərini, o cümlədən, ən azı, malların (3.3.8) və beynəlxalq ticarətdə istifadə olunan fiziki vasitələrin necə qorunduğunu, müvafiq məlumatların (3.1.127) necə mühafizə edildiyini və təhlükəsizlik tədbirlərinin necə nümayiş etdirildiyini və yoxlanıldığını sənədləşdirən öhdəlik
Tərifə dair qeyd 1: Bu bəyannamə təchizat zəncirindəki təşkilat tərəfindən (3.3.9) malların təhlükəsizliyi ilə bağlı təhlükəsizlik tədbirlərinin adekvatlığını qiymətləndirmək üçün istifadə ediləcək.

**3.1.243**
**təhükəsizliklə bağlı insident**
nəticə (3.1.46) doğuran hər hansı bir hərəkət və ya şərait

**3.1.244**
**təhlükəsizliyin idarə olunması**
təhlükəsizlik (3.1.239) və davamlılıq (3.1.206) ilə bağlı təşkilatın (3.1.165) istiqamətləndirilməsi və idarə olunmasına yönəlmiş əlaqələndirilmiş fəaliyyətlər (3.1.2)

**3.1.245**
**təhlükəsizliyin idarə olunması üzrə məqsəd**
təhlükəsizliyin idarə olunması siyasətinə (3.1.246) nail olmaq üçün təhlükəsizlik (3.1.239) sahəsində əldə edilməli olan konkret nəticə və ya nailiyyət
Tərifə dair qeyd 1: Belə nəticələrin ümumi biznes tərəfindən sifarişçilərinə və ya son istifadəçilərinə təqdim olunan məhsulların, ləvazimatın və ya xidmətlərin təmin edilməsi ilə birbaşa və ya dolayı yolla əlaqələndirilməsi vacibdir.

**3.1.246**
**təhlükəsizliyin idarə olunması siyasəti**
təşkilatın (3.1.165) təhlükəsizlik (3.1.239) və təhlükəsizliklə bağlı proseslər (3.1.190) və fəaliyyətlərin (3.1.2) idarə edilməsinə yönəlmiş çərçivəylə bağlı olan, siyasəti (3.1.181) və normativ tələblərinə (3.1.204) uyğun olan və onlardan qaynaqlanan ümumi niyyətləri və istiqaməti

**3.1.247**
**təhlükəsizliyin idarə olunması proqramı**
təhlükəsizliyin idarə olunması üzrə məqsədə (3.1.245) nail olunmasını təmin edən proses (3.1.190)

**3.1.248**
**təhlükəsizliyin idarə olunması üzrə hədəf**

©AZSTAND –Bütün hüquqlar qorunur 

təhlükəsizliyin idarə olunması üzrə məqsədə (3.1.245) çatmaq üçün tələb olunan konkret fəaliyyət (3.1.177) səviyyəsi

**3.1.249**

**təhlükəsizlik əməliyyatı**

insanların, maddi və qeyri-maddi aktivlərin (3.1.13) qorunması (3.1.193) ilə bağlı fəaliyyət (3.1.2) və funksiya

Tərifə dair qeyd 1: Təhlükəsizlik (3.1.239) əməliyyatları vəzifələrin icrası (3.1.177) zamanı silah gəzdirməyi və istifadə etməyi tələb edə bilər.

Tərifə dair qeyd 2: Bu anlayış Beynəlxalq Davranış Qaydaları (ICoC) [9] tərəfindən müəyyən edilmiş təhlükəsizlik xidmətləri tərifini də əhatə edir. Bu tərifə insanlar və obyektlərin (3.1.161) (məsələn, konvoylar, qurğular (3.1.104), təyin olunmuş məkanlar, əmlak və digər yerlər (silahlı və ya silahsız)) mühafizəsi və qorunması, yaxud şirkətlərin şəxsi heyətinin (3.1.179) vəzifələrinin icrası zamanı silah gəzdirməsini və ya istifadə etməsini tələb edən istənilən digər fəaliyyətlər daxildir.

**3.1.250**

**təhlükəsizlik əməliyyatlarının idarə olunması**

təhlükəsizlik əməliyyatları (3.1.249) ilə bağlı təşkilatın (3.1.165) istiqamətləndirilməsi və idarə olunmasına yönəlmiş əlaqələndirilmiş fəaliyyətlər (3.1.2)

Tərifə dair qeyd 1: Təhlükəsizlik əməliyyatlarının idarə olunması ilə bağlı istiqamətləndirmə və nəzarət adətən, siyasətin (3.1.181) hazırlanmasını, planlaşdırmanı (3.1.180) və məqsədləri (3.1.162), əməliyyat proseslərinin (3.1.190) istiqamətləndirilməsini və davamlı təkmilləşdirməni (3.1.49) əhatə edir.

**3.1.251**

**təhlükəsizlik əməliyyatlarına dair məqsəd**

təhlükəsizlik əməliyyatları (3.1.249) ilə bağlı əldə edilməsi və ya nail olunması hədəflənən məqsəd (3.1.162)

Tərifə dair qeyd 1: Təhlükəsizlik əməliyyatlarına dair məqsədlər, adətən, təşkilatın (3.1.165) təhlükəsizlik əməliyyatları siyasətinə (3.1.253) əsaslanır.

Tərifə dair qeyd 2: Təhlükəsizlik əməliyyatlarına dair məqsədlər, adətən, təşkilat daxilində müvafiq funksiyalar və səviyyələr üçün müəyyən edilir.

**3.1.252**

**təhlükəsizlik əməliyyatları üzrə şəxsi heyət**

bir təşkilatın (3.1.165) adından çalışan və təhlükəsizlik əməliyyatlarında (3.1.249) birbaşa və ya dolayısı ilə iştirak edən şəxslər

**3.1.253**

**təhlükəsizlik əməliyyatları üzrə siyasət**

ali rəhbərlik (3.1.279) tərəfindən rəsmi şəkildə ifadə olunmuş qaydada, bir təşkilatın (3.1.165) təhlükəsizlik əməliyyatları (3.1.249) ilə bağlı ümumi niyyətləri və istiqaməti

Tərifə dair qeyd 1: Təhlükəsizlik əməliyyatları üzrə siyasət, adətən, təşkilatın ümumi siyasəti (3.1.181) ilə uyğun gəlir və təhlükəsizlik əməliyyatlarına dair məqsədlərin (3.1.251) müəyyən edilməsi üçün çərçivə yaradır.

Tərifə dair qeyd 2: Bu sənəddə təqdim olunan təhlükəsizlik əməliyyatlarının idarə edilməsi (3.1.250) prinsipləri Beynəlxalq Davranış Qaydaları (ICoC) [9] və Montre Sazişində [10] göstərilən prinsiplər və öhdəliklərə uyğun təhlükəsizlik əməliyyatları siyasətinin hazırlanması üçün əsas təşkil edə bilər.


©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.254**
**təhlükəsizlik əməliyyatları proqramı**
təhlükəsizlik əməliyyatlarının idarə edilməsi (3.1.250) sisteminin məqsədlərinə (3.1.162) nail olmaq üçün lazımi addımların əlaqələndirilməsini təmin etmək məqsədilə ali rəhbərlik (3.1.279) tərəfindən dəstəklənən və maliyyələşdirilən davamlı idarəetmə (3.1.144) və idarəçilik prosesi (3.1.190)

**3.1.255**
**təhlükəsizlik heyəti**
təchizat zəncirində yerləşən bir təşkilatda (3.3.9) təhlükəsizliklə (3.1.239) bağlı vəzifələrə təyin edilmiş şəxslər

**3.1.256**
**təhlükəsizlik planı**
təhlükəsizliyin (3.1.239) adekvat şəkildə idarə olunmasını təmin etmək üçün planlaşdırılmış tədbirlər
Tərifə dair qeyd 1: Bu plan təşkilatı (3.1.165) təhlükəsizliklə bağlı insidentdən (3.1.243) qoruyan tədbirlərin tətbiqinin təmin edilməsini nəzərdə tutur.
Tərifə dair qeyd 2: Təhlükəsizlik planı digər əməliyyat planlarına inteqrasiya edilə bilər.

**3.1.257**
**təhlükəsizlik baxımından həssas xarakterli məlumat**
**təhlükəsizlik baxımından həssas xarakterli material**
təchizat zənciri üzrə (3.1.271) təhlükəsizlik prosesi (3.1.190) çərçivəsində istehsal edilən və ya bu prosesə daxil olan, təhlükəsizlik (3.1.239) prosesləri, çatdırılmalar və ya hökumət göstərişləri ilə bağlı məlumat ehtiva edən və ictimaiyyət üçün asanlıqla əlçatan olmayan, lakin təhlükəsizliklə bağlı insident (3.1.243) törətmək istəyən bir şəxs üçün faydalı ola biləcək məlumat (3.1.127) və ya material

**3.1.258**
**təhlükəsizliklə bağlı təhdid ssenarisi**
təhlükəsizliklə bağlı potensial insidentin (3.1.243) baş verməsinə səbəb ola biləcək vasitələr

**3.1.259**
**özünümüdafiə**
şəxsin özünü və ya əmlakını başqa bir şəxs tərəfindən törədilən zərər cəhdinə qarşı müdafiəsi (3.1.193)

**3.1.260**
**həssas xarakterli məlumat**
bir təşkilata (3.1.165), milli təhlükəsizliyə və ya ictimai təhlükəsizliyə mənfi təsir göstərə biləcəyi üçün ictimaiyyətə açıqlanması məhdudlaşdırılan məlumat (3.1.127)

**3.1.261**
**daxili sığınacaq tədbiri**
insident (3.1.122) zamanı insanları xarici təhlükələrdən qorumaq üçün onları bina/ərazidə yerləşən əvvəlcədən müəyyən edilmiş sahələrə köçürmə tədbiri
Tərifə dair qeyd 1: Bu, “daxili əraziyə sığınma” kimi də ifadə oluna bilər.

**3.1.262**

©AZSTAND –Bütün hüquqlar qorunur 

**sığınmaq**
müvafiq riski (3.1.215) nəzərə alaraq, mühafizə olunan bir yerdə qalmaq və ya dərhal ora sığınmaq

**3.1.263**
**şok**
şəhər sisteminin (3.1.285) məqsəd və ya hədəflərinə (3.1.162) təsir (3.1.118) etmək potensialına malik olan, qəfil, qeyri-müəyyən və ya uzun müddət davam edən hadisə (3.1.96)

**3.1.264**
**simulyasiya**
bir sistemin və ya prosesin (3.1.190) fəaliyyətini başqa bir sistemin və ya prosesin fəaliyyəti vasitəsilə təqlid edən təsvir

**3.1.265**
**sosial müdafiə**
insanların rifahına mənfi təsir edən vəziyyətlərin qarşısını almaq, idarə etmək və onların öhdəsindən gəlmək

Tərifə dair qeyd 1: Sosial müdafiə səmərəli əmək bazarlarını təşviq etmək, insanların risklərə (3.1.215) məruz qalmasını azaltmaq və onların iqtisadi və sosial riskləri, məsələn, işsizlik, sosial təcrid, xəstəlik, əlillik və yaşlılıq kimi halları idarəetmə imkanını (3.1.25) gücləndirməklə, yoxsulluğu və həssaslığı (3.1.290) azaltmaq üçün nəzərdə tutulmuş siyasət və proqramlardan ibarətdir.

**3.1.266**
**mənbə**
ayrılıqda və ya birgə şəkildə risk (3.1.215) yaratma üzrə daxili potensiala malik hər hansı bir şey

Tərifə dair qeyd 1: ISO/Təlimat 73:2009, 3.5.1.2-dən uyğunlaşdırılmışdır.

Tərifə dair qeyd 2: Risk mənbəyi (3.1.230) maddi və ya qeyri-maddi ola bilər.

**3.1.267**
**müstəqil könüllü**
**MK**
mövcud insidentə (3.1.122) cavabvermə üzrə təşkilat və ya könüllü təşkilat ilə əlaqəsi olmayan, lakin genişmiqyaslı əvvəlcədən planlaşdırma olmadan hadisəyə cavabvermə və bərpa (3.1.201) prosesinə dəstək verməyi təklif edən fərd

Tərifə dair qeyd 1: Müstəqil könüllü həm də öz təşəbbüsü ilə toplanan könüllü, birbaşa gələn könüllü, təsadüfi könüllü, epizodik könüllü və ya üzvlüyü olmayan könüllü kimi adlandırıla bilər.

**3.1.268**
**strateji məşğələ**
strateji səviyyədə ali rəhbərliyi (3.1.279) cəlb edən məşğələ (3.1.97)

Tərifə dair qeyd 1: Strateji səviyyəli ali rəhbərliyə, adətən, nazirliklərarası böhran (3.1.60) heyəti (3.1.179), siyasi-inzibati heyət, sektorlararası və şöbələrarası idarəetmə (3.1.144) heyəti, eləcə də korporativ idarəetmə qrupunun böhran vəziyyətinin idarə edilməsi (3.1.61) təşkilatı (3.1.165) daxildir.

Tərifə dair qeyd 2: Strateji məşğələlər ekstremal vəziyyətlərdə böhrana reaksiyaları qiymətləndirmək üçün hazırlanır.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 3: Strateji məşğələlər dövlət, özəl və qeyri-kommersiya sektorlarında təşkilatlarda genişmiqyaslı əlaqələndirmə (3.1.53) və qərar qəbulu mədəniyyətinin inkişaf etdirilməsi məqsədini daşıyır.

**3.1.269**
**gərginlik**
şəhər sisteminin (3.1.285) daxilində yaranan və sistemin öz məqsədlərinə (3.1.162) nail olmaq qabiliyyətinə və potensialına (3.1.25) kumulyativ təsirlər (3.1.118) göstərmək potensialına malik xroniki və davamlı dinamik təzyiq

**3.1.270**
**subpodratçı ilə müqavilə**
mövcud müqavilədən irəli gələn öhdəliyin yerinə yetirilməsi üçün xarici tərəflə müqavilə bağlanması

Tərifə dair qeyd 1: Bir tərəf müəyyən xidmətlərin icrası üçün müqavilə bağladıqda, həmin xidmətlərin bir və ya bir neçəsini “subpodratçı” və ya yerli qüvvələrə həvalə edə bilər.

Tərifə dair qeyd 2: Əsas şirkətin törəmə müəssisələri də subpodratçı təşkilat (3.1.165) hesab edilə bilər.

**3.1.271**
**təchizat zənciri**
fəaliyyətlərdə (3.1.2) iştirak edən və materialların əldə olunmasından tutmuş məhsul və ya xidmətlərin (3.1.158) çatdırılmasına qədər dəyər yaradan təşkilatlar (3.1.165), insanlar, proseslər (3.1.190), logistika, məlumat (3.1.127), texnologiya və resurslar (3.1.207) arasındakı ikitərəfli əlaqə

Tərifə dair qeyd 1: Təchizat zəncirinə satıcılar, subpodratçılar, istehsal müəssisələri (3.1.104), logistika təminatçıları, daxili paylama mərkəzləri, distribyutorlar, topdansatışcılar və son istifadəçiyə qədər prosesdə iştirak edən digər qurumlar (3.1.66) daxil ola bilər.

**3.1.272**
**təchizat zəncirinin davamlığının idarə edilməsi**
**SCCM**
biznesin davamlılığının idarə edilməsi (3.1.20) prinsiplərinin təchizat zəncirinə (3.1.271) tətbiqi

Tərifə dair qeyd 1: Biznesin davamlılığının idarə edilməsi təşkilatın (3.1.165) təchizat zəncirinin bütün səviyyələrinə tətbiq olunmalıdır.

Tərifə dair qeyd 2: Təcrübədə təşkilat adətən bunu yalnız birinci səviyyə təchizatçılarına tətbiq edir və mühüm əhəmiyyətə malik təchizatçılara (3.1.68) öz təchizatçılarına təchizat zəncirinin davamlılığının idarə edilməsini tətbiq etmək baxımından təsir edirlər.

**3.1.273**
**hədəf**
təşkilata (3.1.165) və ya onun müəyyən hissələrinə tətbiq edilə bilən və məqsədlərdən (3.1.162) irəli gələn, həmin məqsədlərə nail olmaq üçün müəyyən edilməli və yerinə yetirilməli olan ətraflı fəaliyyət (3.1.177) tələbi (3.1.204)

[MƏNBƏ: ISO 14050:2020, 3.7.22, dəyişdirilib – “ətraf mühitlə bağlı kommunikasiya” termindən və tərifdə “məqsədlərdən” əvvəl gələn hissədən çıxarılmış, “və ya onun müəyyən hissələri” ifadəsi əlavə edilmişdir.]

**3.1.274**
**hədəf qrup**
məşğələyə (3.1.97) cəlb edilən fərdlər və ya təşkilatlar (3.1.165)

©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.275**
**test**
planlaşdırılan məşğələnin məqsəd və ya hədəfləri (3.1.162) çərçivəsində uğur və ya uğursuzluq elementi ilə bağlı gözləntini özündə birləşdirən unikal və xüsusi məşğələ (3.1.97) növü
Tərifə dair qeyd 1: “Test” və “sınaq” (3.1.276) terminləri “məşğələ” və “məşğələ keçirmə” terminlərindən fərqlidir.

**3.1.276**
**sınaq**
hər hansı bir şeyin mövcudluğunu, keyfiyyətini və ya doğruluğunu müəyyən etmə vasitəsi olan qiymətləndirmə (3.1.95) proseduru (3.1.189)
Tərifə dair qeyd 1: Sınaq “yoxlama” kimi də ifadə oluna bilər.
Tərifə dair qeyd 2: Sınaq çox vaxt dəstəkləyici planlara tətbiq olunur.

**3.1.277**
**təhdid**
fərdlərə, aktivlərə (3.1.13), bir sistemə və ya təşkilata (3.1.165), ətraf mühitə və ya icmaya (3.1.39) zərər vura biləcək, arzuolunmaz bir insidentin (3.1.122) potensial səbəbi

**3.1.278**
**təhdidin təhlili**
fərdlərə, aktivlərə (3.1.13), bir sistemə və ya təşkilata (3.1.165), ətraf mühitə və ya icmaya (3.1.39) zərər vura biləcək, arzuolunmaz bir insidentin (3.1.122) potensial səbəbinin müəyyənləşdirilməsi, keyfiyyətcə və kəmiyyətcə qiymətləndirilməsi prosesi (3.1.190)

**3.1.279**
**ali rəhbərlik**
təşkilatı (3.1.165) ən yüksək səviyyədə idarə edən və ona nəzarət edən şəxs və ya şəxslər qrupu
Tərifə dair qeyd 1: Ali rəhbərlik təşkilat daxilində səlahiyyət vermək və resursları (3.1.207) təmin etmək səlahiyyətinə malikdir.
Tərifə dair qeyd 2: İdarəetmə sisteminin (3.1.146) tətbiq sahəsi təşkilatın yalnız bir hissəsini əhatə etdikdə, təşkilatın həmin hissəsini idarə edən və ya ona nəzarət edən şəxslər ali rəhbərlik hesab edilir.
Tərifə dair qeyd 3: Bu, ISO idarəetmə sistemi standartlarının yüksək səviyyəli strukturu üçün ümumi terminlərdən və əsas təriflərdən birini təşkil edir.

**3.1.280**
**təlim**
bilik, bacarıq və qabiliyyətlərin öyrənilməsini və təkmilləşməsi prosesini asanlaşdırmaq, eləcə də konkret vəzifə və ya rolların icrasını (3.1.177) yaxşılaşdırmaq üçün nəzərdə tutulmuş fəaliyyətlər (3.1.2)

**3.1.281**
**arzuolunmaz hadisə**
insan itkisinə, maddi və ya qeyri-maddi aktivlərə (3.1.13) zərər yetirmə potensialına malik olan və ya daxili və ya xarici maraqlı tərəflərin (3.1.132) insan hüquqlarına (3.1.115) və əsas azadlıqlarına mənfi təsir göstərə biləcək hadisə və ya dəyişiklik

**3.1.282**
**şəhər aqlomerasiyası**


©AZSTAND –Bütün hüquqlar qorunur

şəhər ərazisinin fiziki strukturu və tərkibi, yaxud genişlənmiş şəhər və ya qəsəbə sahəsinin və ya mərkəzi yerin və şəhərətrafı ərazilərin yaşayış zonasının və ya əhali sıxlığının davamlı, bir-biri ilə əlaqəli şəhər inkişafı ilə birləşdiyi böyük şəhər qruplarının davamlılığı (3.1.50)

**3.1.283**
**açıq şəhər sahəsi**
şəhər ərazisi sərhədləri daxilində yerləşən, ictimai və ya şəxsi istifadədə olan boş sahələr

Tərifə dair qeyd 1: Açıq şəhər sahələri şəhər sisteminin (3.1.285) əhatə dairəsi və çevrəsi (3.1.170) daxilində olan bütün kənar açıq sahələri və əhatələnmiş açıq sahələri əhatə edir.

Tərifə dair qeyd 2: Dövlət parkları, milli parklar və ya şəhər ərazisinin sərhədlərindən kənarda, kənd ərazilərində yerləşən açıq sahələr bu sənəddə açıq şəhər sahələri hesab edilmir.

**3.1.284**
**şəhər dayanıqlığı**
dəyişən mühitdə şəhər sisteminin (3.1.285) və onun sakinlərinin şokları (3.1.263) qabaqcadan görmək, onlara hazırlaşmaq, reaksiya vermək və onları mənimsəmək, eyni zamanda gərginliklərə (3.1.269) və çətinliklərə (3.1.29) müsbət şəkildə uyğunlaşmaq və bununla bağlı əsaslı dəyişiklik etmək, bununla yanaşı, inklüziv və dayanıqlı inkişafı asanlaşdırmaq qabiliyyəti

Tərifə dair qeyd 1: Daha dayanıqlı bir şəhər sistemi qısamüddətli və ortamüddətli perspektivdə pozuntulara (3.1.75) qarşı davamlı olmaq qabiliyyəti ilə yanaşı, təzyiqləri azaltmaq və dəyişikliklərə, risklərə (3.1.215) və imkanlara uyğunlaşmaq potensialına (3.1.25) malik olması ilə xarakterizə olunur. Buna görə də, şəhər dayanıqlığı şəhər sisteminin yalnız şoklarla deyil, həm də xroniki gərginlik və çətinliklərlə mübarizə aparmaq qabiliyyətindən asılıdır.

Tərifə dair qeyd 2: Şəhər dayanıqlığı mürəkkəb şəhər sisteminin ayrı-ayrı komponentlərinin fərdi və kollektiv davamlılığından (3.1.206) asılıdır. Şəhər ərazisi daxilindəki bir şəhər, qəsəbə və ya icma (3.1.39) öz müvafiq sərhədləri daxilində ayrıca olaraq dayanıqlığını artıra bilsə də, şəhər dayanıqlığı daha geniş coğrafi ərazini – şəhər aqlomerasiyasını (3.1.282) əhatə edir. Şəhər sisteminin dayanıqlığı hər bir fərdi sistem komponentinin dayanıqlıq potensialı (3.1.25) ilə ölçülür və sistemin əhatə dairəsi çərçivəsində şəhər aqlomerasiyası daxilində ən zəif komponentin dayanıqlığından asılı olur.

Tərifə dair qeyd 3: Şoklar, gərginliklər və çətinliklər fonunda qiymətləndirmək, planlaşdırmaq və müvafiq addımlar atmaq üçün şəhər sisteminin dayanıqlıq qabiliyyəti keyfiyyət və kəmiyyət göstəriciləri əsasında ölçülməli və təhlil edilməlidir.

**3.1.285**
**şəhər sistemi**
universal və qarşılıqlı asılı ölçülərlə (fiziki, funksional, təşkilati və məkan) xarakterizə olunan, insan məskəni, inteqrasiya olunmuş və mürəkkəb sistem komponentlərindən ibarət quruluş; effektiv idarəçilik mexanizmləri vasitəsilə idarə olunan insanlardan, proseslərdən (3.1.190) və aktivlərdən (3.1.13) ibarətdir

Tərifə dair qeyd 1: Dinamik olduğu üçün şəhər sisteminin tərkibi və elementləri zamanla dəyişir.

Tərifə dair qeyd 2: Ölçüsündən, mədəniyyətindən, yerləşdiyi yerdən, iqtisadi və/və ya siyasi mühitindən asılı olmayaraq, hər bir şəhər ərazisi şəhər sisteminin xüsusiyyətlərinə malikdir.

Tərifə dair qeyd 3: Şəhər sistemləri kimi xarakterizə olunan şəhər əraziləri çoxsaylı komponentləri arasındakı mürəkkəb qarşılıqlı əlaqələri və qarşılıqlı asılılıqları idarə etməklə

©AZSTAND –Bütün hüquqlar qorunur

bağlı məqsədlər (3.1.162) təyin edir. Bu idarəetmənin məqsədi müxtəlif funksiyaları, o cümlədən sosial, iqtisadi, mədəni və ətraf mühit funksiyalarını yerinə yetirməkdir.

**3.1.286**
**güc tədbiqetmə kontinuumu**

qarşı tərəfin reaksiyasına görə tətbiq olunan güc səviyyəsini bir kontinuum olaraq artırmaq və ya azaltmaqla, ağlabatan və zəruri güc miqdarının tətbiq olunması

Tərifə dair qeyd 1: Tətbiq edilən güc miqdarı ortaya çıxan təhdidi (3.1.277) aradan qaldırmaq üçün tələb olunan ən minimal və ağlabatan həddə olmalıdır ki, hər hansı xəsarət riski (3.1.215) və şiddəti minimuma endirilsin.

Tərifə dair qeyd 2: Güclə reaksiya zamanı güc səviyyəsinin artırılması/azaldılması vəziyyətə uyğun olmalı, cavab tədbirinin kontinuum boyunca saniyələr içində bir hissədən digərinə keçə biləcəyi nəzərə alınmalıdır.

**3.1.287**
**dəyərlər**

təşkilatın (3.1.165) bağlı olduğu inanclar və əməl etməyə çalışdığı standartlar

**3.1.288**
**verifikasiya**

müəyyən edilmiş tələblərin (3.1.204) yerinə yetirildiyinə dair obyektiv sübutların təqdim olunması vasitəsilə təsdiqləmə prosesi

**3.1.289**
**video-müşahidə**

video vasitəsilə həyata keçirilən müşahidə

**3.1.290**
**zəiflik**

zəifliyin təhlili

bir nəticəyə (3.1.45) səbəb ola biləcək risk mənbəyinə (3.1.215) qarşı həssaslıq yaradan bir şeyi müəyyənləşdirmə və kəmiyyətcə qiymətləndirmə prosesi (3.1.190)

**3.1.291**
**zəifliyin qiymətləndirilməsi**

zəifliklərin müəyyənləşdirilməsi və kəmiyyətcə qiymətləndirilməsi prosesi (3.1.190)

**3.1.292**
**həssas vəziyyətdə olan qrup**

ayrı-seçkiliyin və ya əlverişsiz sosial, iqtisadi, mədəni, siyasi və ya sağlamlıq şəraitinin əsasını təşkil edən və öz hüquqlarını təmin etmə və ya başqa bir şəkildə bərabər imkanlardan yararlanma vasitələrindən məhrum olmalarına səbəb olan bir, yaxud bir neçə ortaq xüsusiyyətlərə malik fərdlər

**3.1.293**
**həssas vəziyyətdə olan şəxs**

bir fövqəladə vəziyyətin (3.1.87) təsirlərini (3.1.118) əvvəlcədən görmək, onlarla mübarizə aparmaq, onlara qarşı müqavimət göstərmək və ya onlardan sağ çıxmaq baxımından daha az qabiliyyətli ola biləcək fərd

Tərifə dair qeyd 1: Bu sənəddə həssas vəziyyətdə olan şəxs zəifliyin (3.1.290) xarakteri ilə deyil, fövqəladə vəziyyət (3.1.87) zamanı onun şəxsi vəziyyəti ilə müəyyən edilir.

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**3.1.294**
**xəbərdarlığın yayılması funksiyası**
təhlükənin monitorinqi funksiyasından (3.1.111) əldə edilən sübutlara əsaslanan məlumatlar (3.1.127) əsasında risk altında olan şəxslərə (3.1.176) müvafiq mesajların verilməsi ilə bağlı fəaliyyətlər (3.1.2)

**3.1.295**
**iş mühiti**
işin yerinə yetirildiyi şəraitlərin məcmusu
Tərifə dair qeyd 1: Şəraitlərə fiziki, sosial, psixoloji və ətraf mühit amilləri daxildir (məsələn, temperatur, işıqlandırma, tanıma sistemi, iş stresi, erqonomika və atmosfer tərkibi).
[MƏNBƏ: ISO 9000:2015, 3.5.5]

**3.1.296**
**işçi qüvvəsi**
təşkilatın (3.1.165) məqsədlərinin (3.1.162) həyata keçirilməsinə cəlb olunmuş hər kəs, o cümlədən birbaşa işçilər, agentlik işçiləri, podratçılar və könüllülər

**3.1.297**
**Ümumdünya Gömrük Təşkilatı ÜGT**
gömrük idarələrinin effektivliyini (3.1.86) və səmərəliliyini artırmaq missiyasına malik müstəqil hökumətlərarası qurum
Tərifə dair qeyd 1: Bu təşkilat gömrük məsələləri üzrə səlahiyyətli olan yeganə qlobal hökumətlərarası təşkilatdır (3.1.165).

**3.2 Vergi möhürlərinin saxtalaşdırılması ilə bağlı terminlər**

**3.2.1**
**aktivləşdirmə**
tətbiq olunan vergilərin (3.2.3) ödənilməli olduğu vaxt vergi möhürünün (3.2.39) istehsalı və ya istifadə mərhələsi
Tərifə dair qeyd 1: İstifadə olunan xüsusi eyniləşdirmə göstəricisinin (XEG) (3.2.44) aktivləşdirilməsi vergi möhürünün aktivləşdirilməsindən ayrı ola bilər.

**3.2.2**
**dəyişdirmə**
orijinal bir şeyi və ya onun üzərində və ya içərisində olan məlumatları kimyəvi, aşındırıcı və ya digər üsullarla qəsdən dəyişdirmək cəhdi
Tərifə dair qeyd 1: Bu sənəddə “bir şey” termini vergi möhürünə (3.2.39) istinad edir.

**3.2.3**
**tətbiq olunan vergi**
milli, dövlət, rayon və ya yerli qanunvericilikdə müəyyən edildiyi kimi məhsullar üzrə aksiz və digər gəlir vergiləri

**3.2.4**
**hücum**
autentifikasiya həllini (3.2.11) aşmağa yönələn uğurlu və ya uğursuz cəhd(lər), o cümlədən autentifikasiya elementlərini (3.2.9) təqlid etməyə, istehsal etməyə və ya çoxaltmağa yönəlmiş cəhdlər

**3.2.5**
**atribut**

©AZSTAND –Bütün hüquqlar qorunur 

obyektin (3.1.161) müəyyənləşdirilməsi (3.1.117) və autentifikasiya sistemlərinin tərkibini təşkil edən
məlumat (3.1.127) kateqoriyası

**3.2.6**
**atribut məlumatlarını idarəetmə sistemi**
**AMİS**
obyektlərə (3.1.161) aid məlumatların saxlanmasını, idarə olunmasını və onlara çıxış imkanına (3.1.1) nəzarəti həyata keçirən sistem

**3.2.7**
**orijinal maddi mal**
qanuni istehsalçının, malların (3.3.8) mənşə sahibinin və ya hüquq sahibinin (3.1.214) nəzarəti altında istehsal edilən maddi mal (3.1.149)

**3.2.8**
**audentifikasiya**
bir predmetin (3.1.91) və ya atributların (3.2.5) müəyyən edilmiş və ya qəbul olunmuş etibarlılıq səviyyəsinə uyğun olaraq təsdiqlənməsi prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Bu sənəddə "predmet" termini vergi möhürünə (3.2.39) istinad edir.

Tərifə dair qeyd 2: "Müəyyən edilmiş və ya qəbul olunmuş etibarlılıq səviyyəsi" ifadəsi hər hansı bir elementin autentifikasiyasının tam dəqiqliklə həyata keçirilməsinin mümkün olmadığını qəbul edir. Əldə edilən dəqiqlik səviyyəsi istifadə olunan autentifikasiya həllinin (3.2.11) növü, ekspertin hazırlıq səviyyəsi (3.1.280) və motivasiyası və ona əlçatan olan avadanlıqlardan asılı olaraq dəyişir. Məsələn, bir istehlakçının autentifikasiya prosesi ilə məhkəmə ekspertiza (3.1.106) laboratoriyasının həyata keçirdiyi autentifikasiya prosesi arasında əldə edilən etibarlılıq səviyyəsi əhəmiyyətli dərəcədə fərqlənir.

**3.2.9**
**audentifikasiya elementi**
maddi mala (3.1.149) və ya onun qablaşdırmasına aid olan və autentifikasiya həllinin (3.2.11) bir hissəsi kimi istifadə edilən maddi obyekt (3.1.161), vizual xüsusiyyət və ya məlumat (3.1.127)

**3.2.10**
**audentifikasiya funksiyası**
autentifikasiya (3.2.8) prosesini yerinə yetirən funksiya

**3.2.11**
**audentifikasiya həlli**
maddi malın (3.1.149) autentifikasiyasını (3.2.8) həyata keçirməyə imkan verən vasitə və prosedurların (3.1.189) tam toplusu

**3.2.12**
**audentifikasiya aləti**
saxtakarlığa qarşı həllin bir hissəsi olan və autentifikasiya elementinə (3.2.9) nəzarət olunması üçün istifadə edilən avadanlıq və/və ya proqram təminatı sistem(lər)i toplusu

**3.2.13**
**etibarlı mənbə**
bir atributun (3.2.5) rəsmi mənşəyi və eyni zamanda həmin atributun qorunub saxlanmasına məsul olan mənbə

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**3.2.14**
**avtomatik şərh**
autentifikasiya həllinin (3.2.11) bir və ya daha çox komponentinə görə orijinallığın avtomatik olaraq qiymətləndirilməsi prosesi (3.1.190)

**3.2.15**
**gizli audentifikasiya elementi**
insanın hiss orqanları ilə adətən aşkar edilə bilməyən, yalnız bir alət və ya avtomatik şərh (3.2.14) vasitəsilə məlumatlı şəxslər tərəfindən üzə çıxarıla bilən autentifikasiya elementi (3.2.9)

**3.2.16**
**qoruyucu surət**
etibarlı mənbəyə (3.2.13) tabe olan surət

**3.2.17**
**birbaşa markalama**
lazer markalama və ya mürəkkəblə, yaxud qabın materialına yapışan digər çap vasitələri ilə çap etməklə vergi möhürünün (3.2.39) birbaşa məhsulun qabına vurulması

**3.2.18**
**səhv qəbul əmsalı**
səhv şəkildə doğru kimi elan edilən autentifikasiya (3.2.8) nisbəti

**3.2.19**
**səhv imtina əmsalı**
səhv şəkildə yanlış kimi elan edilən autentifikasiya (3.2.8) nisbəti

**3.2.20**
**məhkəmə ekspertizası təhlili**
xüsusi biliklərə malik səriştəli ekspert tərəfindən xüsusi avadanlıqlardan istifadə edilməklə autentifikasiya elementinin (3.2.9) və ya daxili atributun (3.2.5) təsdiqlənməsi yolu ilə maddi malların (3.1.149) autentifikasiyasına yönəlmiş elmi metodologiya

**3.2.21**
**identifikator**
bir subyektə (3.1.91) identifikasiya (3.1.117) məqsədilə təyin edilmiş müəyyən atributlar (3.2.5) toplusu

**3.2.22**
**kimlik identifikatoru**
bir subyektlə (3.1.91) əlaqəli olan atributlar (3.2.5) toplusu

Tərifə dair qeyd 1: Kimlik identifikatoru obyektin (3.1.161) digər bütün obyektlərdən fərqləndirilməsinə imkan verən unikal atributlara malik ola bilər

Tərifə dair qeyd 2: Kimlik identifikatoru insan, təşkilat (3.1.165) və obyektlər (fiziki və qeyri-maddi) baxımından nəzərdən keçirilə bilər.

**3.2.23**
**qanunsuz məhsul**
bütün və ya bir hissəsi ödənilməli olan lazımi tətbiq olunan vergilərdən (3.2.3) yayınmaq məqsədilə bazara çıxarılan vergiyə cəlb olunan istehlak məhsulu

©AZSTAND –Bütün hüquqlar qorunur

Tərifə dair qeyd 1: Risklərin qiymətləndirilməsi (3.1.219) çərçivəsində vergi orqanları (3.2.38) qanunsuz məhsul hesab edilən malları müəyyən etmək üçün öz yurisdiksiyalarında mövcud qanunvericiliyə və qaydalara istinad etməlidirlər.

Tərifə dair qeyd 2: Qanunsuz məhsullara qanunsuz istehsal edilən, saxtalaşdırılmış, yenidən doldurulmuş, qaçaqmalçılıq yolu ilə gətirilmiş və ya qeyri-qanuni şəkildə yenidən idxal edilmiş məhsullar daxil ola bilər.

**3.2.24**

**inspektor**

obyekti (3.1.161) qiymətləndirmək məqsədilə obyektin yoxlanılması funksiyasından (3.2.29) istifadə edən bir şəxs

[MƏNBƏ: ISO 16678:2014, 2.1.10, dəyişdirilib — Tərifə dair qeydlər çıxarılmışdır.]

**3.2.25**

**inspektorun giriş tarixçəsi**

xüsusi eyniləşdirmə göstəricilərinin (XEG) (3.2.44) nə zaman yoxlanıldığını, mümkün olduqda hansı (xüsusi səlahiyyətli) inspektor (3.2.24) tərəfindən və mümkün olduqda hansı konkret yerdən yoxlanıldığını ətraflı şəkildə göstərən giriş qeydləri

Tərifə dair qeyd 1: Çox vaxt vaxt möhürlərindən istifadə olunur.

**3.2.26**

**inteqrasiya olunmuş audentifikasiya elementi**

maddi mala (3.1.149) əlavə edilən autentifikasiya elementi (3.2.9)

**3.2.27**

**daxili audentifikasiya elementi**

maddi malın (3.1.149) ayrılmaz xüsusiyyəti olan autentifikasiya elementi (3.2.9)

**3.2.28**

**aparıcı maraqlı tərəf**

obyektin (3.1.161) identifikasiyası (3.1.117) və autentifikasiya sistemlərinin (İ-A-lər) qarşılıqlı fəaliyyətini (3.1.137) təşkil edən yeganə maraqlı tərəf (3.1.132), qarşılıqlı fəaliyyəti idarə edən maraqlı tərəflər qrupu və ya xüsusi hüquqi şəxs (3.1.91)

**3.2.29**

**obyektin yoxlanılması funksiyası**

**OYF**

təsdiq etmək məqsədilə xüsusi eyniləşdirmə göstəricisini (XEG) (3.2.44) və ya digər atributları (3.2.5) tapmaq və ya müəyyən etmək prosesi (3.1.190)

Tərifə dair qeyd 1: Bu proses zamanı digər atributlar xüsusi eyniləşdirmə göstəricisinin (XEG) qiymətləndirilməsinə (3.1.95) kömək edə bilər.

**3.2.30**

**standart audentifikasiya aləti**

açıq satış şəbəkələri vasitəsilə əldə edilə bilən autentifikasiya aləti (3.2.12)

**3.2.31**

**onlayn autentifikasiya aləti**

autentifikasiya elementini (3.2.9) yerli olaraq şərh edə bilmək üçün real vaxt rejimində onlayn bağlantı tələb edən autentifikasiya aləti (3.2.12)

**3.2.32**


©AZSTAND –Bütün hüquqlar qorunur

**aşkar autentifikasiya elementi**

insanın hiss orqanlarından biri və ya bir neçəsi ilə alətdən istifadə etmədən aşkar edilə və yoxlanıla bilən autentifikasiya elementi (3.2.9) (eynək və ya eşitmə aparatları kimi insanın qüsurlu hiss orqanlarını düzəldən gündəlik istifadə edilən alətlər istisna olmaqla)

**3.2.33**
**xüsusi məqsədli autentifikasiya aləti**

müəyyən bir autentifikasiya həllinə (3.2.11) yönəldilmiş autentifikasiya aləti (3.2.12)

**3.2.34**
**təsnifatçı**

müəyyən bir maddi mala (3.1.149) tətbiq ediləcək autentifikasiya həlli (3.2.11) üçün tələbləri (3.1.204) müəyyən edən şəxs və ya qurum (3.1.91)

**3.2.35**
**müstəqil autentifikasiya aləti**

gizli autentifikasiya elementini (3.2.15) insan hiss orqanları üçün aşkar edərək insan tərəfindən verifikasiya (3.1.288) üçün istifadə edilən və ya autentifikasiya elementini (3.2.9) müstəqil şəkildə yoxlaya bilmək üçün tələb olunan funksiyaları özündə birləşdirən autentifikasiya aləti (3.2.12)

**3.2.36**
**əsas material (substrat)**

vergi möhürünün (3.2.39) vergi möhürünü tətbiq edən subyektin (3.2.40) yerləşdiyi yerdən kənarda istehsal edildiyi vaxt hazırlandığı material

**3.2.37**
**müdaxilə izləri aşkar edilə bilən**

bir əşyanın keyfiyyətinin pozulduğunu göstərə bilən xüsusiyyət

Tərifə dair qeyd 1: Bu sənəddə "əşya" termini vergi möhürünə (3.2.39) istinad edir.

**3.2.38**
**vergi organı**

tətbiq olunan vergilərin (3.2.3) yığılmasına, həmçinin vergi möhürlərinin (3.2.39) spesifikasiyası və dizaynına cavabdeh olan dövlət qurumu (milli, rayon, regional və ya yerli səviyyədə).

Tərifə dair qeyd 1: Vergi orqanı müstəqil bir qurum ola və ya gömrük xidməti, maliyyə nazirliyi və ya digər vergi orqanlarının bir hissəsi kimi fəaliyyət göstərə bilər.

**3.2.39**
**vergi möhürü**

müvafiq aksiz vergisinin ödənildiyini göstərmək üçün müəyyən növ istehlak mallarına (3.3.8) vurulan görünən möhür, etiket və ya nişan

Tərifə dair qeyd 1: Vergi möhürü məhsula, qablaşdırmaya və ya vergiyə cəlb olunan malın konteynerinə etiket, bağlama möhürü, göstərici və ya işarə formasında tətbiq edilə bilər.

Tərifə dair qeyd 2: Vergi möhürləri hökumət sistemində tətbiq olunan vergilərin (3.2.3) yığılması və qorunması (3.1.193) üçün istifadə olunan bir alətdir.

Tərifə dair qeyd 3: Əsas material (substrat) (3.2.36) üzərində hazırlanmış vergi möhürləri həmçinin "vergi markaları" və "vergi banderolları" (bəzi hallarda "banderoles" (ingilis dilində)) kimi də adlandırılır.

**3.2.40**

©AZSTAND –Bütün hüquqlar qorunur 

**vergi möhürünü tədbiq edən subyekt**

vergiyə cəlb olunan məhsula vergi möhürü (3.2.39) tətbiq edən subyekt

Tərifə dair qeyd 1: Möhürün tətbiqi birbaşa markalama (3.2.17) və ya əsas material (substrat) (3.2.36) üzərində hazırlanmış vergi möhürünün yapışdırılması ilə həyata keçirilə bilər.

Tərifə dair qeyd 2: Vergi möhürünü tətbiq edən subyekt adətən vergiyə cəlb olunan məhsulun və ya məhsulların istehsalçısı, qablaşdırıcısı və ya idxalçısı, yaxud vergi möhürünün tətbiqi barədə vergi orqanına (3.2.38) məlumat (3.1.127) verməyə cavabdeh olan vergi möhürü təchizatçısı olur. Bu məlumat, vergi orqanının tələb etdiyi halda və vaxtda, möhürün yapışdırıldığı məhsulla bağlı detalları ehtiva edir.

**3.2.41**

**vergi möhürü üzrə maraqlı tərəf**

vergi möhürü (3.2.39) sisteminin tətbiqi, icrası və istifadəsində payı olan subyekt (3.1.91)

**3.2.42**

**etibarlı sorğu emalı funksiyası**

**ESEF**

etibarlı verifikasiya funksiyasına (EVF) (3.2.43) və atribut məlumatlarını idarəetmə sisteminə (AMİS) (3.2.6) giriş təmin edən funksiya

**3.2.43**

**etibarlı verifikasiya funksiyası**

**EVF**

qəbul edilən xüsusi eyniləşdirmə göstəricisinin (XEG) (3.2.44) etibarlı olub-olmadığını yoxlayan və cavabı müvafiq qaydalara və giriş icazələrinə uyğun şəkildə idarə edən funksiya

**3.2.44**

**xüsusi eyniləşdirmə göstəricisi**

**XEG**

obyektin identifikasiyası (3.1.117) sistemi çərçivəsində müəyyən bir sahədə və diapazonda mövcud olduğu müddət boyunca müəyyən bir obyektə (3.1.161) və ya obyektlər qrupuna aid olan vahid və spesifik atributlar (3.2.5) toplusunu təmsil edən kod

**3.3 Təchizat zənciri ilə bağlı terminlər**

**3.3.1**

**müvafiq hüquq-mühafizə orqanları və digər dövlət rəsmiləri**

beynəlxalq təchizat zənciri (3.1.135) və ya onun müəyyən hissələri üzərində xüsusi hüquqi yurisdiksiyaya malik olan dövlət və hüquq-mühafizə orqanlarının heyəti (3.1.179).

**3.3.2**

**səlahiyyətli iqtisadi operator**

beynəlxalq mal dövriyyəsində (3.3.8) istənilən funksiyada iştirak edən və milli gömrük idarəsi tərəfindən və ya onun adından təsdiq edilən, müvafiq təchizat zəncirinin (3.1.271) təhlükəsizlik standartlarına uyğun olduğu tanınan tərəf

Tərifə dair qeyd 1: "Səlahiyyətli iqtisadi operator" termini Ümumdünya Gömrük Təşkilatının (ÜGT)
(3.1.297) Standartlar Çərçivəsində müəyyən edilmişdir.

Tərifə dair qeyd 2: Səlahiyyətli iqtisadi operatorlara, istehsalçılar, idxalçılar, ixracatçılar, brokerlər, daşıyıcılar, konsolidatorlar, vasitəçilər, limanlar, hava limanları, terminal operatorları, inteqrasiya olunmuş operatorlar, anbarlar və distribyutorlar və s. daxildir.


©AZSTAND –Bütün hüquqlar qorunur

**3.3.3**
**biznes tərəfdaşı**
təşkilatın (3.1.165) təchizat zəncirindəki təşkilat (3.3.9) kimi funksiyasını yerinə yetirməsinə kömək etmək üçün müqavilə bağladığı podratçı, təchizatçı və ya xidmət təminatçısı

**3.3.4**
**sertifikatlaşdırılmış sifarişçi**
təchizat zəncirinin (3.1.271) təhlükəsizliyi idarəetmə (3.1.244) sistemi ixtisaslı üçüncü tərəf tərəfindən sertifikatlaşdırılmış/ qeydiyyata alınmış təşkilat (3.1.165)

**3.3.5**
**daşıma vasitəsi**
malların (3.3.8) bir yerdən başqa yerə daşınmasını təmin edən beynəlxalq ticarət üzrə fiziki vasitə
NÜMUNƏ Konteyner, pallet, yükdaşıma vahidi (3.1.27), yükləmə-boşaltma avadanlığı, yük maşını, gəmi, təyyarə, vaqon.

**3.3.6**
**nəzarət müddəti**
təchizat zəncirindəki bir təşkilatın (3.3.9) təchizat zənciri (3.1.271) çərçivəsində malların (3.3.8) istehsalı, idarə olunması, emalı və daşınmasına, həmçinin onların daşınması ilə bağlı məlumatlara (3.1.127) birbaşa nəzarət etdiyi müddət

**3.3.7**
**təchizat zəncirinin sonrakı mərhələsi**
malların (3.3.8) təchizat zəncirindəki təşkilatın (3.3.9) nəzarətində (3.3.6) olmadığı zaman idarə olunması, emalı və daşınması

**3.3.8**
**mallar**
satınalma sifarişi verildikdən sonra alıcı tərəfindən istifadə və ya istehlak edilmək üçün təchizat zənciri (3.1.271) çərçivəsində istehsal olunan, idarə olunan, emal edilən və ya daşınan əşyalar və ya materiallar

**3.3.9**
**təchizat zəncirindəki təşkilat**
aşağıdakı funksiyaları yerinə yetirən subyekt (3.1.91):
— malların (3.3.8) istehsalı, idarə olunması, emalı (3.1.190), yüklənməsi, birləşdirilməsi, boşaldılması və ya qəbulu ilə məşğul olan və müəyyən bir mərhələdə beynəlxalq və ya iqtisadi sərhədi keçən satınalma sifarişi əsasında fəaliyyət göstərən;
— hər hansı bir nəqliyyat vasitəsi ilə beynəlxalq təchizat zəncirində (3.1.135) təchizat zəncirinin (3.1.271) müəyyən hissəsi milli (və ya iqtisadi) sərhədləri keçməsə belə, malları daşıyan, yaxud
— gömrük orqanları tərəfindən və ya biznes praktikasında istifadə olunan çatdırılma məlumatlarının (3.1.127) yaradılması, paylanması və ya axınının təmin olunması, idarə olunması və ya həyata keçirilməsinə məsul olan.

**3.3.10**
**1-ci dərəcəli təchizatçı**
məhsul və xidmətləri (3.1.192) adətən müqavilə razılaşmaları əsasında birbaşa olaraq təşkilata (3.1.165) təqdim edən təminatçı

©AZSTAND –Bütün hüquqlar qorunur 

**3.3.11**
**2-ci dərəcəli təchizatçı**
məhsul və xidmətləri (3.1.192) 1-ci dərəcəli təchizatçı (3.3.10) vasitəsilə dolayı olaraq təşkilata (3.1.165) təqdim edən təminatçı

**3.3.12**
**izləmə və nəzarət**
hər bir ayrıca maddi malın (3.1.149), yaxud partiya(lar)ın və ya seriyanın müəyyən bir zamanda harada olduğunu (izləmə) və təchizat zəncirinin (3.1.271) hansı mərhələsində olduğunu (nəzarət) bilmək üçün eyniləşdirmə vasitələri

**3.3.13**
**təchizat zəncirinin ilkin mərhələləri**
təchizat zəncirindəki təşkilatın (3.3.9) mallara nəzarət etməzdən əvvəl baş verən, malların (3.3.8) idarə olunması, emalı və daşınması prosesi

### 3.4 CCT sistemi ilə bağlı terminlər

**3.4.1**
**dinamik metaməlumatlar**
video ardıcıllığının hər bir kadrı üçün dəyişə bilən piksel dəyərlərindən başqa, rəqəmsal təsvirlə bağlı məlumatlar

**3.4.2**
**metaməlumatlar**
ISO və ya digər rəsmi qurum tərəfindən müəyyən edilmiş formatda audio-vizual məzmunu və məlumatın mahiyyətini təsvir edən məlumatlar (3.1.127)

NÜMUNƏ Tarix və saat, mətn elementləri, məkanı müəyyənləşdirən məlumatlar, audio və digər əlaqəli, bağlı və ya işlənilmiş məlumatlar.

**3.4.3**
**kameranın baxış sahəsi**
bir kameranın görə bildiyi sahənin çevrəsini müəyyən edən coğrafi məkanların (3.1.109) toplusu

Tərifə dair qeyd 1: Topluya daxil olan hər bir coğrafi məkan eyni koordinat sistemindən istifadə edir. Kameranın baxış sahəsində ən azı bir coğrafi məkan olmalıdır. Coğrafi məkanlar saat istiqamətində və ya əks istiqamətdə düzülə bilər. Tək coğrafi məkanlı baxış sahələrində həmin məkan baxış sahəsinin mərkəzi kimi qəbul edilir.

**3.4.4**
**semantik qarşılıqlı fəaliyyət**
iki və ya daha çox sistemin və ya xidmətin dəqiq mübadilə edilən məlumatları (3.1.127) avtomatik olaraq şərh etmək və istifadə etmək qabiliyyəti

**3.4.5**
**statik metaməlumatlar**
zamanla dəyişməyən (və ya müvafiq ardıcıllıq ərzində dəyişməyən) piksel dəyərlərindən başqa, rəqəmsal təsvirlə bağlı məlumatlar

**3.4.6**
**sintaktik qarşılıqlı fəaliyyət**
iki və ya daha çox sistemin və ya xidmətin strukturlaşdırılmış məlumatı (3.1.127) mübadilə etmək qabiliyyəti

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## ƏDƏBİYYAT

[1]ISO 9000:2015, Keyfiyyəti idarəetmə sistemləri - Əsas anlayışlar və lüğət

[2]ISO 14050:2020, Ətraf mühitin idarə edilməsi — *Lüğət*

[3]ISO 14055-1:2017, Ətraf mühitin idarə edilməsi — Torpağın deqradasiyası və səhralaşma ilə mübarizə üçün qabaqcıl təcrübələrin müəyyənləşdirilməsinə dair rəhbəredici göstəişlər — Hissə 1: *Qabaqcıl təcrübələr çərçivəsi*

[4]ISO 16678:2014, Saxtakarlığın və qeyri-qanuni ticarətin qarşısını almaq üçün qarşılıqlı fəaliyyət göstərən obyektin müəyyənləşdirilməsi və əlaqəli autentifikasiya sistemləri üzrə təlimatlar

[5]ISO 19011:2018, İdarəetmə sistemlərinin təftişi üzrə rəhbər qaydalar

[6]ISO 31000:2018, Risklərin idarə olunması — *Rəhbəredici göstərişlər*

[7]ISO/IEC 38500:2015, *İnformasiya texnologiyası — Təşkilatlar üçün İT idarəetməsi*

[8]ISO Təlimatı 73:2009, Risklərin idarə olunması — *Lüğət*

[9]ICoCA. Özəl təhlükəsizlik xidməti təminatçıları üçün Beynəlxalq Davranış Kodeksi Confédération suisse, Geneva, 2010. Aşağıdakı keçiddən əldə etmək mümkündür (2017-10-05): icoca.ch/the-codehttps://

[10] FDFA and ICRC. Montre Sazişi: Silahlı münaqişələr zamanı özəl hərbi və təhlükəsizlik şirkətlərinin əməliyyatları ilə əlaqəli olaraq dövlətlər üçün müvafiq beynəlxalq hüquqi öhdəliklər və nümunəvi təcrübələr haqqında. Confédération suisse and International Committee of the Red Cross, Berne/ Geneva, 2008. Aşağıdakı keçiddən əldə etmək mümkündür (14.09.2020): publication/0996-montreuxhttps://www.icrc.org/en/ -private-military-and-security-companies-document

©AZSTAND –Bütün hüquqlar qorunur 

## Terminlərin siyahısı

A

çıxış imkanı 3.1.1

aktivləşdirmə 3.2.1

fəaliyyət 3.1.2

yapışdırıcı 3.1.3

AMİS 3.2.6

təsirə məruz qalan ərazi 3.1.4

hadisədən sonrakı hesabat 3.1.5

xəbərdarlıq 3.1.6

təhlükə sovuşdu siqnalı 3.1.7

bütün növ təhlükələr 3.1.8

dəyişdirmə 3.2.2

alternativ iş yeri 3.1.9

təhlil sahəsi 3.1.10

təhlil sistemi 3.1.11

tətbiq olunan vergi 3.2.3

müvafiq hüquq-mühafizə orqanları və digər dövlət rəsmiləri 3.3.1

risk altında olan ərazi 3.1.12

aktiv 3.1.13

hücum 3.2.4

atribut 3.2.5

atribut məlumatlarını idarəetmə sistemi 3.2.6

audit 3.1.14

auditor 3.1.15

orijinal maddi mal 3.2.7

autentifikasiya 3.2.8

autentifikasiya elementi 3.2.9

autentifikasiya funksiyası 3.2.10

autentifikasiya həlli 3.2.11

autentifikasiya aləti 3.2.12

etibarlı mənbə 3.2.13

səlahiyyətli iqtisadi operator 3.3.2

avtomatik şərh 3.2.14

B

əsas sosial xidmətlər 3.1.16

BDİS 3.1.21

fayda 3.1.17

biomüxtəliflik 3.1.18

biznesin davamlılığı 3.1.19

biznesin davamlılığının idarə edilməsi 3.1.20

biznesin davamlılığını idarəetmə sistemi 3.1.21

biznesin davamlılığı planı 3.1.22

biznesin davamlılığı proqramı 3.1.23

biznesə təsirin təhlili 3.1.24

biznes tərəfdaşı 3.3.3

C

potensial 3.1.25

qayğı göstərən şəxs 3.1.26

yükdaşıma vahidi 3.1.27

KNN 3.1.63

CCTV (müşahidə kameraları) sistemi 3.1.28

sertifikatlaşdırılmış sifarişçi 3.3.4

çətinlik 3.1.29

mülki müdafiə 3.1.30

vətəndaş cəmiyyəti 3.1.31

vətəndaş cəmiyyəti təşkilatı 3.1.32

sifarişçi 3.1.33

rəng korluğu 3.1.34

rəng kodu 3.1.35

 ©AZSTAND –Bütün hüquqlar qorunur

idarəetmə və nəzarət 3.1.36

idarəetmə və nəzarət sistemi 3.1.37
ünsiyyət və məsləhətləşmə 3.1.38

icma 3.1.39
icma əsaslı erkən xəbərdarlıq sistemi 3.1.40

icmanın həssaslığı 3.1.41

səriştə 3.1.42

mürəkkəblik 3.1.43

uyğunluq 3.1.44

nəticə <yekun nəticə> 3.1.45

nəticə <itki> 3.1.46

kontekst 3.1.47

fövqəladə hal 3.1.48

davamlı təkmilləşmə 3.1.49

davamlılıq 3.1.50

nəzarət tədbiri 3.1.51

daşıma vasitəsi 3.3.5

əməkdaşlıq 3.1.52

əlaqələndirmə 3.1.53

təshihetmə 3.1.54

təshihedici tədbir 3.1.55
saxtalaşdırmaq, fel 3.1.56
saxta mal 3.1.57

mübarizə tədbiri 3.1.58
əhatə dairəsi 3.1.59
gizli autentifikasiya elementi 3.2.15

böhran 3.1.60

böhran vəziyyətinin idarə edilməsi 3.1.61
böhran vəziyyətinin idarə edilməsi üzrə qrup 3.1.62

kritik nəzarət nöqtəsi 3.1.63

kritik sifarişçi 3.1.64
kritik obyekt 3.1.65

kritik göstərici 3.1.66

kritik məhsul və xidmət 3.1.67

kritik təchizatçı 3.1.68

kritiklik təhlili 3.1.69

kritik şəkildə 3.1.70

VCT 3.1.32

qoruyucu surət 3.2.16

nəzarət müddəti 3.3.6

D

məlumatların təhlili 3.1.71

mərkəzləşdirilməmiş hakimiyyət 3.1.72

birbaşa markalama 3.2.17

fəlakət 3.1.73

fəlakət risklərinin azaldılması 3.1.74

pozuntu 3.1.75

dəyişkənlik yaradan hadisə 3.1.76
sənəd 3.1.77
sənədləşdirilmiş informasiya 3.1.78

təchizat zəncirinin sonrakı mərhələsi 3.3.7

məşq 3.1.79

öhdəlik daşıyan şəxs 3.1.80

qayğı öhdəliyi 3.1.81

dinamik metaməlumatlar 3.4.1

E

erkən xəbərdarlıq 3.1.82

iqtisadi müxtəliflik 3.1.83

ekosistem 3.1.84

ekosistem xidmətləri 3.1.85

effektivlik 3.1.86

fövqəladə vəziyyət 3.1.87

fövqəladə vəziyyətin idarə olunması 3.1.88

fövqəladə vəziyyətin idarə olunması imkanı 3.1.89

©AZSTAND –Bütün hüquqlar qorunur 

işçilərə dəstək proqramı 3.1.90
subyekt 3.1.91
təxliyə 3.1.92
təxliyə əmri 3.1.93
təxliyə məşqi 3.1.94
qiymətləndirmə 3.1.95
hadisə 3.1.96
məşğələ 3.1.97
illik məşğələ planı 3.1.98
məşğələ koordinatoru 3.1.99
məşğələ proqramı 3.1.100
məşğələ proqramı üzrə menecer 3.1.101
məşğələ üzrə layihə qrupu 3.1.102
məşğələnin təhlükəsizliyi üzrə məsul şəxs 3.1.103
kənar hücum 3.1.104
F
obyekt 3.1.105
səhv qəbul əmsalı 3.2.18
səhv imtina əmsalı 3.2.19
final exercise report 3.1.5
məhkəmə ekspertizası 3.1.106
məhkəmə ekspertizası təhlili 3.2.20
tammiqyaslı məşğələ 3.1.107
funksional məşğələ 3.1.108
G
coğrafi yerləşmə 3.1.109
yapışqan 3.1.3
mallar 3.3.8
H
təhlükə 3.1.110
təhlükənin monitorinqi funksiyası 3.1.111
ev sahibi 3.1.112
İHRT 3.1.116
rəng çaları 3.1.113
insan tərəfindən dəyərləndirmə 3.1.114
insan hüquqları 3.1.115
insan hüquqları ilə bağlı risklərin təhlili 3.1.116
I
identifikasiya 3.1.117
identifikator 3.2.21
kimlik identifikatoru 3.2.22
qanunsuz məhsul 3.2.23
təsir 3.1.118
təsirin təhlili 3.1.119
qərəzsizlik 3.1.120
gözlənilməz vəziyyətin öhdəsindən gəlmə 3.1.121
insident 3.1.122
insident üzrə əmr 3.1.123
insidentin idarə edilməsi sistemi 3.1.124
insidentə hazırlıq 3.1.125
insidentə cavabvermə 3.1.126
məlumat 3.1.127
infrastruktur 3.1.128
təbii təhlükəli əmlak 3.1.129
ssenari əlavəsi 3.1.130
inspektor 3.2.24
inspektorun giriş tarixçəsi 3.2.25
inteqrasiya olunmuş autentifikasiya elementi 3.2.26
bütövlük 3.1.131
maraqlı tərəf 3.1.132
daxili hücum 3.1.133
daxili audit 3.1.134

 ©AZSTAND –Bütün hüquqlar qorunur

beynəlxalq təchizat zənciri 3.1.135

qarşılıqlı fəaliyyət < müxtəlif sistemlər > 3.1.136

qarşılıqlı fəaliyyət <vahid-giriş nöqtəsi> 3.1.137

daxili autentifikasiya elementi 3.2.27

investisiya 3.1.138

elan etmə 3.1.139

K

əsas fəaliyyət göstəricisi 3.1.140

ƏFG 3.1.140

L

torpaq sürüşməsi 3.1.141

aparıcı maraqlı tərəf 3.2.28

baş vermə ehtimalı 3.1.142

məntiqi struktur 3.1.143

M

idarəetmə 3.1.144

idarəetmə planı 3.1.145

idarəetmə sistemi 3.1.146

idarəetmə sistemi ilə bağlı məsləhətləşmə və/yaxud müvafiq risk qiymətləndirməsi 3.1.147

MAO 3.1.151

kütlələrin hərəkəti 3.1.148

maddi mal 3.1.149

maddi malın həyat dövranı 3.1.150

maksimum qəbul edilə bilən fasilə müddəti 3.1.151

pozuntuya dözülə biləcək maksimum müddət 3.1.151

MBDM 3.1.153

ölçmə 3.1.152

metaməlumatlar 3.4.2

minimum biznes davamlılığı məqsədi 3.1.153

təsirlərin azaldılması 3.1.154

monitorinq 3.1.155

monitorinq prosesinə məsul şəxs 3.1.156

MTPD 3.1.151

qarşılıqlı yardım razılaşması 3.1.157

N

fövqəladə vəziyyətlərdə əlaqə üçün təyin olunmuş şəxs 3.1.158

uyğunsuzluq 3.1.159

bildiriş 3.1.160

O

obyekt 3.1.161

obyektin yoxlanılması funksiyası 3.2.29

məqsəd 3.1.162

müşahidəçi 3.1.163

OYF3.2.29

standart autentifikasiya aləti 3.2.30

onlayn autentifikasiya aləti 3.2.31

əməliyyat məlumatı 3.1.164

təşkilat 3.1.165

təchizat zəncirindəki təşkilat 3.3.9

təşkilati mədəniyyət 3.1.166

təşkilati davamlılıq 3.1.167

kənar qaynaqlardan istifadə, fel 3.1.168

aşkar autentifikasiya elementi 3.2.32

məsul tərəf 3.1.169

P

parametr 3.1.170

iştirakçı 3.1.171

tərəfdaşlıq fəaliyyəti 3.1.172

tərəfdaşlıq 3.1.173

həmkarlar tərəfindən baxış 3.1.174

©AZSTAND –Bütün hüquqlar qorunur 

biznes davamlılığının insan aspektləri3.1.175

risk altında olan şəxslər 3.1.176

fəaliyyət səmərəliliyi 3.1.177

fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi 3.1.178

şəxsi heyət 3.1.179

planlaşdırma 3.1.180

siyasət 3.1.181

hazırlıq 3.1.182

profilaktika 3.1.183

təhlükələrin və təhdidlərin qarşısının alınması 3.1.184

qabaqlayıcı tədbir 3.1.185

prioritet fəaliyyət 3.1.186

özəl təhlükəsizlik şirkəti 3.1.187

özəl təhlükəsizlik xidməti təminatçısı 3.1.187

ehtimal 3.1.188

prosedur 3.1.189

proses 3.1.190

məhsul və xidmət 3.1.191

məhsul saxtakarlığı 3.1.192

müdafiə 3.1.193

ÖTXT 3.1.187

psixoloji kritik hadisə 3.1.194

psixoloji maarifləndirmə 3.1.195

ilkin psixoloji yardım 3.1.196

ictimai xəbərdarlıq 3.1.19

ictimai xəbərdarlıq sistemi 3.1.198

xüsusi məqsədli autentifikasiya aləti 3.2.33

R

xammal 3.1.199

qeyd 3.1.200

bərpa 3.1.201

hədəf bərpa nöqtəsi 3.1.202

hədəf bərpa müddəti 3.1.203

hazırlıq vəziyyəti 3.1.182

tələb 3.1.204

qalıq risk 3.1.205

davamlılıq 3.1.206

resurs 3.1.207

cavabvermə planı 3.1.208

cavabvermə proqramı 3.1.209

cavabvermə qrupu 3.1.210

baxış 3.1.211

baxış məqsədilə həyata keçirilən səfər 3.1.212

baxış keçirən tərəf 3.1.213

hüquq sahibi 3.1.214

risk 3.1.215

riskin qəbul edilməsi 3.1.216

riskin təhlili 3.1.217

risk iştahası 3.1.218

riskin qiymətləndirilməsi 3.1.219

risklər barədə məlumatlandırma 3.1.220

risk meyarları 3.1.221

riskin dəyərləndirilməsi 3.1.222

risklərin müəyyənləşdirilməsi 3.1.223

risklərin idarə olunması 3.1.224

risklərin təsirlərinin azaldılması 3.1.225

risk sahibi 3.1.226

risklərin azaldılması 3.1.227

risk reyestri 3.1.228

riskin bölüşdürülməsi 3.1.229

risk mənbəyi 3.1.230

risk tolerantlığı 3.1.231

riskin aradan qaldırılması 3.1.232

dayanıqlıq 3.1.233

RPO 3.1.202



©AZSTAND –Bütün hüquqlar qorunur

RTO 3.1.203

S

SCCM 3.1.272

ssenari 3.1.234

kameranın baxış sahəsi 3.4.3
məşğələnin əhatə dairəsi 3.1.235

xidmətin əhatə dairəsi 3.1.236

ssenari mətni 3.1.237

məxfi məlumat 3.1.238

təhlükəsizlik 3.1.239

təhlükəsizlik aspekti 3.1.240

təhlükəsizlik baxımından təsdiqlənmə 3.1.241

təhlükəsizlik bəyannaməsi 3.1.242

təhlükəsizliklə bağlı insident 3.1.243

təhlükəsizliyin idarə olunması 3.1.244
təhlükəsizliyin idarə olunması üzrə məqsəd 3.1.245

təhlükəsizliyin idarə olunması siyasəti 3.1.246
təhlükəsizliyin idarə olunması proqramı 3.1.247
təhlükəsizliyin idarə olunması üzrə hədəf 3.1.248

təhlükəsizlik əməliyyatı 3.1.249
təhlükəsizlik əməliyyatlarının idarə olunması 3.1.250
təhlükəsizlik əməliyyatlarına dair məqsəd 3.1.251
təhlükəsizlik əməliyyatları üzrə şəxsi heyət 3.1.252
təhlükəsizlik əməliyyatları üzrə siyasət 3.1.253
təhlükəsizlik əməliyyatları proqramı 3.1.254

təhlükəsizlik heyəti 3.1.255

təhlükəsizlik planı 3.1.256

təhlükəsizlik baxımından həssas xarakterli məlumat 3.1.257

təhlükəsizlik baxımından həssas xarakterli material 3.1.257

təhlükəsizliklə bağlı təhdid ssenarisi 3.1.258
özünümüdafiə 3.1.259

semantik qarşılıqlı fəaliyyət 3.4.4

həssas xarakterli məlumat 3.1.260
daxili sığınacaq tədbiri, isim 3.1.261

sığınmaq, fel 3.1.262

şok 3.1.263
simulyasiya 3.1.264

sosial müdafiə 3.1.265

mənbə 3.1.266

təsnifatçı 3.2.34

müvəqqəti könüllü 3.1.267

maraqlı tərəf 3.1.132

müstəqil autentifikasiya aləti 3.2.35

strateji məşğələ 3.1.268

statik metaməlumatlar 3.4.5

gərginlik 3.1.269

subpodratçı ilə müqavilə 3.1.270

əsas material (substrat) 3.2.36

təchizat zənciri 3.1.271

təchizat zəncirinin davamlılığının idarə edilməsi 3.1.272

MK 3.1.267

sintaktik qarşılıqlı fəaliyyət 3.4.6

D

müdaxilə izləri aşkar edilə bilən 3.2.37

vergi orqanı 3.2.38

vergi möhürü 3.2.39

vergi möhürünü tətbiq edən subyekt 3.2.40

vergi möhürü üzrə maraqlı tərəf 3.2.41

hədəf 3.1.273

hədəf qrup 3.1.274

test 3.1.275

sınaq 3.1.276

təhdid 3.1.277

təhdidin təhlili 3.1.278

1-ci dərəcəli təchizatçı 3.3.10

2-ci dərəcəli təchizatçı 3.3.11

ali rəhbərlik 3.1.279

ESEF 3.2.42

izləmə və nəzarət 3.3.12

təlim 3.1.280

etibarlı sorğu emalı funksiyası 3.2.42

etibarlı verifikasiya funksiyası 3.2.43
EVF 3.2.43

U

XEG 3.2.44

arzuolunmaz hadisə 3.1.281

xüsusi eyniləşdirmə göstəricisi 3.2.44

təchizat zəncirinin ilkin mərhələləri 3.3.13

şəhər aqlomerasiyası 3.1.282

açıq şəhər sahəsi 3.1.283

şəhər dayanıqlığı 3.1.284

şəhər sistemi 3.1.285

güc tətbiqetmə kontinuumu 3.1.286

V

dəyərlər 3.1.287

verifikasiya 3.1.288

video-müşahidə 3.1.289

zəiflik 3.1.290

zəifliyin təhlili 3.1.290

zəifliyin qiymətləndirilməsi 3.1.291

həssas vəziyyətdə olan qrup 3.1.292

həssas vəziyyətdə olan şəxs 3.1.293

W

xəbərdarlığın yayılması funksiyası 3.1.294
ÜGT 3.1.297

iş mühiti 3.1.295

işçi qüvvəsi 3.1.296

Ümumdünya Gömrük Təşkilatı 3.1.297

 ©AZSTAND –Bütün hüquqlar qorunur

**ICS 01.040.03 03.100.01**

**Əsas sözlər:** risk, vergi möhürü, atribut, audentifikasiya, maraqlı tərəf

©AZSTAND –Bütün hüquqlar qorunur 

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
Publik hüquqi şəxs

**AZS ISO 22300:2025**
**Təhlükəsizlik və davamlıq – Lüğət**


©AZSTAND –Bütün hüquqlar qorunur